**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# "BƏLƏDİYYƏLƏRDƏ MÜASİR MENECMENTİN FORMALAŞMASI PRİNSİPLƏRİ" mövzusunda

**MAGİSTR DİSSERTASİYASI**

**Nadiri Lalə İbrahim**

**BAKI – 2020**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**
**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**
**___________________________ imza**
**"____" _______________ 20__-ci il**

**"BƏLƏDİYYƏLƏRDƏ MÜASİR MENECMENTİN FORMALAŞMASI PRİNSİPLƏRİ" mövzusunda**

# MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı:** 060410-Dövlət və bələdiyyə idarəetməsi

**İxtisaslaşma:** Bələdiyyə menecmenti

**Qrup:** 262

**Magistrant:**
**Nadiri Lalə İbrahim qızı**
**____________________ imza**

**Elmi rəhbər:**
**i.ü.f.d. Muradov Rəşad Hüseyn oğlu**
**__________________ imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d., dos. Şamxalova Samirə Oqtay qızı**
**______________________imza**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**___________________ imza**

**BAKI-2020**

## Elm andı

Mən, Nadiri Lalə İbrahim qızı and içirəm ki, "Bələdiyyələrdə müasir menecmentin formalaşması prinsipləri" mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

**“BƏLƏDİYYƏLƏRDƏ MÜASİR MENECMENTİN FORMALAŞMASI PRİNSİPLƏRİ”**


## XÜLASƏ

**Tədqiqatın aktuallığı: Müasir dövrdə ölkənin ictimai və dövlət strukturunda yerli özünü idarəetmənin yeri, dövlətlə bələdiyyələrin qarşılıqlı fəaliyyəti ilə bağlı prinsiplərin öyrənilməsi xüsusi əhəmiyyətə malikdir. Məhz bu səbəbdən də tədqiqat işi öz aktuallığı ilə fərqlənir.**

**Tədqiqatın məqsədi: Yerli özünüidarəetmə sistemi kimi bələdiyyələrin konseptual aspektlərini araşdırmaq, Azərbaycanda bələdiyyə menecmentin müasir problemlərinin tədqiqi, təhlili və qiymətləndirilməsi məsələlərinin həlli, həmçinin bələdiyyələrin maliyyə menecmenti sisteminin təkmilləşdirilməsinin prioritet istiqamətlərini şərh etməkdən ibarətdir.**

**İstifadə olunmuş tədqiqat metodları: Materialların qiymətləndirilməsində iqtisadi və müqayisəli təhlil, ümumiləşdirmə, analiz-sintez metodlarından istifadə edilmişdir.**

**Tədqiqatın informasiya bazası: İnformasiya bazası kimi yerli özünü idarəetmə orqanlarının fəaliyyətini göstərən hüquqi-normativ aktlar, qanun və sərəncamlar, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi materialları istifadə olunmuşdur.**

**Tədqiqatın məhdudiyyətləri: Müxtəlif statistik göstəricilər üzrə məlumat bazasının olmaması (məsələn, iqtisadi sektorlar üzrə vergi daxilolmalarının olmaması) həmin sahə üzrə təqdiqatın aparılmasına, məlumatın təhlilində çətinliklərin yaranmasına səbəb olurdu.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Yerli özünüidarəetmənin gələcək inkişafı demokratik ölkələrin zəngin tərkibinə əsaslananmaqla və ölkənin özünəməxsus yerli və milli xüsusiyyətlərini nəzərə almaqla bütövlükdə həm menecment və iqtisadi pozuntu şəraitində,həmdə xüsusi halda yerli özünü idarəetmə şəraitində islahatların aparılmasına imkan verəcəkdir.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Azərbaycan Respublikasının yerli özünüidarəetmə orqanlarının fəaliyyət mexanizmində istifadə olunması məqsədə uyğundur. Çünki göstərilən prinsiplər və qanunauyğunluqlar bələdiyyə menecmentində daha effektivdir.**



***Açar sözlər: bələdiyyələr, menecment, sistemlər***

## “PRİNCİPLES OF FORMATİON OF MODERN MANAGEMENT İN MUNİCİPALİTİES”


## SUMMARY

**The actuality of the subject: İn modern times, the study of the place of local self-government in the public and state structure of the country, the study of the principles of interaction between the state and municipalities is of particular importance. Therefore, the research is differentiated by its importance.**

**Purpose and tasks of the research: It consists of exploring the conceptual aspects of municipalities as a system of local self-government, research, analysis and evaluation of modern problems of municipal management in Azerbaijan, as well as commenting on priority areas for improving the financial management system of municipalities.**

**Used research methods: Economic and comparative analysis, generalization, graphic studies, analysis-synthesis methods were used in the evaluation of materials.**

**The information base of the research: Legal-normative acts, laws and orders, official materials of the State Statistics Committee of the Republic of Azerbaijan reflecting the activity of local self-government bodies were used as the information base.**

**Restrictions of research: The lack of a database of various statistical indicators (for example, the lack of tax revenues by economic sectors) made it difficult to conduct research in this area and to analyze the data.**

**The novelty and practical results of investigation: The future development of local self-government, based on the rich composition of democracies and taking into account the specific local and national characteristics of the country, will allow for reforms in both management and economic disruption as a whole, and in local self-government in particular.**

**Scientific-practical significance of results: It is expedient to usage the mechanism of activeness of native self-government institutions of the Republic of Azerbaijan. Because these principles and regularities are more effective in municipal management.**



***Keywords: municipalities, management, systems***

# İXTİSARLAR VƏ İŞARƏLƏR

**AŞ –** Avropa Şurası

**NK** – Nazirlər Kabineti

**MM** – Milli Məclis

**İKT-**İnformasiya Kommunikasiya Texnologiyaları

**MÜNDƏRİCAT**

**GİRİŞ** ........ **8**

**I FƏSİL. YERLİ ÖZÜNÜİDARƏETMƏ SİSTEMİ KİMİ BƏLƏDİYYƏLƏRİN FORMALAŞMASI VƏ İNKİŞAFININ NƏZƏRİ ƏSASLARI** ........ **11**

1.1. Yerli özünüidarəetmə sistemi kimi bələdiyyələrin formalaşması mərhələləri 11

1.2. Bələdiyyə menecmentinin maliyyə-iqtisadi, informasiya və kadr təminatı .... 14

1.3. Yerli özünüidarəetmə və bələdiyyələrin funksiyaları və səlahiyyətləri ........ 24

**II FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASINDA YERLİ ÖZÜNÜİDARƏETMƏ SİSTEMİNİN MÜASİR İNKİŞAF DİNAMİKASININ TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ** ........ 33

2.1. Azərbaycan Respublikasında bələdiyyə sisteminin iqtisadi və hüquqi aspektləri ........ 33

2.2. Bələdiyyələrin mövcud maliyyə-iqtisadi vəziyyətinin təhlili ........ 41

2.3. Bələdiyyə menecmentinin inkişafının müasir vəziyyəti və səmərəliliyinin qiymətləndirilməsi ........ 44

**III FƏSİL. ƏRAZİ İDARƏÇİLİK FORMALARININ TƏKMİLLƏŞDİRİLMƏSİ** ........ 52

3.1. Ərazi idarəetməsinin təkmilləşdirilməsi ........ 52

3.2. Qeyri-mərkəzləşdirilmiş ərazi idarəçilik formalarının təkmilləşdirilməsi ...... 54

3.3. Bələdiyyələrin maliyyə-iqtisadi imkanlarının gücləndirilməsinin aşkar edilməsi. ........ 61

**NƏTİCƏ VƏ TƏKLİFLƏR** ........ **67**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI** ........ 69

Cədvəllərin siyahısı ........ 72

Şəkillərin siyahısı ........ 72

# GİRİŞ

**Mövzunun aktuallığı:** Müasir dövrdə ölkənin ictimai və dövlət strukturunda yerli özünü idarəetmənin yeri, rolu və təyinatı ilə bağlı məsələlərin, yerli özünüidarəetmənin demokratik hüquqi dövlət və vətəndaş cəmiyyəti ilə bağlı aspektlərinin, dövlətlə bələdiyyələrin qarşılıqlı fəaliyyəti ilə bağlı problemlərin öyrənilməsi xüsusi əhəmiyyətə malikdir.

Ümumiyyətlə, dövlət və yerli özünüidarətmə subyektləri ilə rasional qarşılıqlı əlaqələr sisteminin qurulmasını nəzərə alaraq, xüsusilə aşkar zəmanətlərin olması tələb edilir. Buna görə də, səmərəli, iqtisadi və siyasi xüsusiyyətlərinə görə lazımlı tədbirlərdən ən başlıcası ölkənin hakimiyyət orqanları tərəfindən lokal özünüidarəetmə qurumlarının inkişafı ilə əlaqədar qəbul olunan qərarların ərsəyə gətirilməsi və icrasında bələdiyyə nümayəndələrinin aktiv fəaliyyətinə şərait yaratmaqdır.

Qeyd olunmalıdır ki, dövlət və bələdiyyə statuslu orqanlarının əlaqəli fəaliyyət vacib və konseptual problemdir, ölkə əhalisinin həyatını hərtərəfli şəkildə özündə ehtiva edir.

Ona görə də, müasir yanaşmaların aparılmasına ehtiyac var. Mövzunun müasir dövr üçün kifayət qədər aktual olması bunu tələb edir. Məhz bu səbəbdən tədqiqat işi əhəmiyyətli sayılır.

Mövzunun aktualığı onunla xarakterizə olunur ki, bələdiyyələrdə müasir menecmentin formalaşması əsasında yerliözünü idarəetmənin real inkişafını təmin edəcək sabit maliyyə - iqtisadi məsələləri dəyanır.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** İndiki şəraitdə ən başlıca şərt əhalinin yerli özünüidarəetmədə aktiv və həll edici iştirakına nail olmaq üçün menecmentdən və cəmiyyətin səylərinin gücləndirilməsindən, bələdiyyə orqanlarının öz iş qabiliyyətlərini sübut etməsindən, yerli problemləri həll etmək bacarığının nümayiş etdirilməsindən ibarətdir. Bələdiyyə menecmentinin araşdırılmasına dair çoxlu sayda yerli və xarici alimlərin, həmçinin mütəxəssislərin əsərləri vardır.

**Tədqiqatın məqsəd və vəzifələri:** Dissertasiya işinin məqsədi ölkəmizdə bələdiyyələrin idarə edilməsi üzrə nəzəri və praktiki baxımdan əsaslandırılmış təklifləri hazırlamaqdır.

Dissertasiya işinin əsas vəzifələri aşağıdakılardır:

✓ Dövlətin hakimiyyət qurumlarının özünüidarəetmə orqanları ilə əlaqəli prosesin təşkil olunmasının analizi;

✓ Bələdiyyələrin idarə olunmasında demokratik dəyərlərin formalaşdırılması, gücləndirilməsi və tərəqqisinə şərait yaradılması göstəricilərinin mənimsənilməsi;

✓ Yerli özünü idarəetmənin bilavasitə konstitutsiya ilə müəyyənləşdirilmiş səlahiyyətlərin realllaşdırılması üçün hüquqi təminatın təhlili;

✓ Bələdiyyə idarəetməsində maliyyə və işçi təminatı aspektlərinin tədqiq olunması.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyekti yerli özünüidarəetmə sistemləri təşkil edir. Predmeti isə bələdiyyələrin demokratik nəzarət sisteminin formalaşdırılması, onların fəaliyyətində menecment mexanizmlərinin daha da təkmilləşdirilməsi məsələsidir.

**Tədqiqat metodları:** Tədqiqat prosesi iqtisadi və müqayisəli təhlil, ümumiləşdirmə, analiz-sintez metodlarından istifadə edilmişdir. Həmçinin ölkədə bələdiyyə menecmentinin yaxşılaşdırılmasına nail olmaq məqsədilə qabaqcıl ölkələrin təcrübələri ilə ölkənin cari vəziyyəti müqayisə edilmişdir.

**Tədqiqatın informasiya bazası:** Tədqiqat işində yerli özünüidarəetmə orqanlarının fəaliyyətini göstərən hüquqi-normativ aktlar, qanun və sərəncamlar, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi materialları istifadə olunmuşdur.

**Tədqiqatın məhdudiyyətləri:** Müxtəlif statistik göstəricilər üzrə məlumat bazasının olmaması həmin sahə üzrə təqdiqatın aparılmasına, məlumatın təhlilində çətinliklərin yaranmasına səbəb olurdu.

**Tədqiqatın elmi yeniliyi:** Ölkəmizdə aparılan islahatlar çərçivəsində tədqiqat işində ortaya çıxan elmi yenilikləri aşağıdakı kimi qeyd etmək olar:

- yerli özünüidarəetmə sistemi kimi, bələdiyyələrin formalaşması yollarının göstərilməsi;

- bələdiyyələrin funksiyaların və səlahiyyətlərinin günün tələblərinə uyğun sistemləşdirilməsi;

- ərazi idarəçilik formalarının təkmilləşdirilməsinin yeni modelinin təklifi;

- qeyri - mərkəzləşdirilmiş ərazi idarəetmə formalarının rolu və yeri müəyyənləşdirilmişdir.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri**: Nəticələrin elmi-praktiki əhəmiyyəti aşağıdakılardan ibarətdir :

- Tədqiqat prosesinin sonunda əldə edilən nəticələr yerli özünüidaretmə orqanlarının effektiv menecmentinə əlverişli şərait yarada bilər;

- Bələdiyyə mülkiyyətinin idarə olunmasına üçün hazırlanan konsepsiya və proqramlar Azərbaycan Respublikasının digər bələdiyyələrinin inkişafında da geniş istifadə oluna bilər;

- Hazırlanmış təkliflər və nəticələr ali təhsil müəssisələrində “Dövlət və bələdiyyə idarəetməsi” ixtisası üzrə təhsil alan tələbələr, həmçinin bu sahədə araşdırmalar aparan mütəxəssislər üçün etibarlı informasiya mənbəyi və baza ola bilər.

# I FƏSİL. YERLİ ÖZÜNÜİDARƏETMƏ SİSTEMİ KİMİ BƏLƏDİYYƏLƏRİN FORMALAŞMASI VƏ İNKİŞAFININ NƏZƏRİ ƏSASLARI

## 1.1. Yerli özünüidarəetmə sistemi kimi bələdiyyələrin formalaşması mərhələləri

Yerli özünü idarəetmə qurumları sistematik olaraq insan cəmiyyətinin formalaşması və onun təkamülü ilə birlikdə ortaya çıxmış, nəticədə, dövlət kimi güclü sosial institutun meydana gəlib, insanların həyatına təsirini göstərmişdir. Əslində, idarəetmə prosesi tarixən qədimdən mövcuddur. Lakin, qeyd etmək yerinə düşərdi ki, uzun bir tarixi dövr ərzində idarəetmə anlayışı sadə halda mövcud olmuş (empirik vəziyyət deyilir), demək olar ki, elmi mənbələrə əsaslanmamışdır. İdarəetmənin səmərəli formada təşkil olunmasına birbaşa olaraq Elmi Texniki Tərəqqinin (ETT) inkişafı, məhsuldar qüvvələrin getdikcə ixtisaslaşması, istehsalat əlaqələrinin müxtəlif xarakteristikaları da öz təsirini göstərmişdir. Buna görə də idarəetmə ictimai və iqtisadi uyğunluğun məqsədə müvafiq təşkil olunması metodlarını özündə ehtiva edərək, bütöv və tam bir sistemin bir-birindən fərqli göstəriciləri arasındakı əlaqəni yarada bilən bir proses kimi qiymətləndirilir. İdarəetmə fəaliyyəti nəticə etibarilə davamlı və fasiləsiz inkişaf edərək idarəetmənin bütövlükdə elmi baza yarada bilmişdir.

İnkişaf etmiş ölkələrin istehsal fəaliyyətinin tarixi təcrübəsindən bəlli olur ki, demokratik və hüquqi cəhətdən güclü olan dövlətin ən böyük məqsədi hakimiyyətin bütün halqalarında səmərəli idarəetmənin mövcudluğu, xüsusilə də inkişaf etmiş yerli özünü idarəetmə sisteminə arxalanmaqla məsələləri həll yoluna qovuşdurmaqdır. Dövlət hazırki dövrdə hakimiyyətin tək və yeganə mərkəzləşdirilmiş subyekti rolunu oynayır və dövlət idaretməsinin başlıca prinsipi olan "demokratiklik prinsipi" nə əsasən nəinki bütövlükdə dövlət, hər bir ərazi orqanının da özünü inkişafını təşkil etməlidir. Bu baxımdan indiki dövrdə dövlətin idarəsi işlərində bələdiyyələrin yeri və təyinatı ilə əlaqəli problemlərin, yerli idarəetmənin vətəndaş cəmiyyəti ilə əlaqəli yanaşmalarının, bələdiyyələrin

fəaliyyəti ilə bağlı olan problemlərin yaxşı mənimsənilib, öyrənilməsi çox böyük əhəmiyyət təşkil edir.

Dünya ölkələrində ən yüksək sosial təşkilatçılıq tipi sayılan və idarəetmənin pik nöqtəsi hesab olunan vətəndaş cəmiyyətinin formalaşması, öncəliklə hər tərəfli səmərəli idarəetməni tələb etməklə bərabər, bələdiyyələrin də mükəmməl fəaliyyətini özündə əks etdirir. Səbəb olaraq açıqlanır ki, yerli idarəetmənin düzgün fəaliyyəti demokratik dövlət üçün inkişaf etmiş vətəndaş cəmiyyətinin əsas əlamətlərindən biridir. Dünyanın bir çox qabaqcıl ölkələrində dövlət üçün strateji hesab olunan məsələlləri çıxmaq şərti ilə ( müdafiə sahəsi, ölkənin digər dövlətlər ilə xarici əlaqələri, əhalinin təhlükəsizliyinin təmin olunması və s.), bütün digər məsələlərdə vətəndaş cəmiyyəti dövlətlə şərik olaraq öz münasibətini bildirir. İnkişaf etmiş ölkələrin istər siyasi, istərsə də sosial və iqtisadi cəhətdən qazandığı uğurların əsas səbəblərindən biri də vətəndaş cəmiyyətinin yüksək səviyyəsidir.

Yerli idarəetmənin yaranmasının başlıca səbəblərindən biri idarəetmənin öz zəruri tələbidir. Nəinki dövlət idarəçiliyi, bütün idarəçilik formalarında ən əsas məsələ qarşıya qoyulan hədəflərə ən optimal və mümkün olduğu qədər az ziyanla nail olmaqdır. Yerli özünü idarəetmənin əsas əlamətləri özünü aşağıdakı punktlarda göstərir:

- Lokal idarəetmə sistemli formada təsis olunur, ictimai prosesin əsasını təşkil edir.

- Bu fəaliyyət yerli əhalinin rifahı və mənafelərinin müdafiəsi ilə əlaqəlidir. Fərdlərin mənafeləri idarəetmənin əlverişli olması üçün nəzərə alınmalıdır.

- Yerli özünü idarəetmə fəaliyyəti qeyri-dövlət fəaliyyəti hesab olunur.

- Bu fəaliyyəti qeyri-dövlət qurumları həyata keçirir. İnkişaf etmiş ölkələrdə özünüidarəetmə təşkilati formalar olaraq özünü büruzə verir. Bütün bu təşkilati formalar birlikdə bələdiyyələrin təyin olunduqları ərazidə vacib məsələlərin həllini təmin edən struktur-vahid sistem olaraq fəaliyyət göstərərək, insanlara xidmət edirlər.

Belə ki, demokratik dövlətlərdə lokal xarakter daşıyan məsələlərin idarə edilməsi hakimiyyətin təyin etdiyi orqanlar, yüksək vəzifəli şəxslərlə yanaşı birbaşa

inzibati-ərazilərdəki yerli əhalinin öz arasından seçdiyi nümayəndəli qurumlar tərəfindən realizə oluna bilər. Qeyd edilən qurumlar yerli özünü idarəetmə orqanları və yaxud bələdiyyələr olaraq tanımlanır. Belə nəticəyə gəlmək olar ki, dövlət hakimiyyəti institutu və yerli özünü idarəetmə ölkənin hakimiyyət strukturunu özündə ehtiva edir. Sual olunur ki, qeyd edilən idarəetmə sahəsində ən vacib məsələ hansıdır? Burada prinsip olaraq başlıca məsələ dövlətdə xalq hakimiyyət institutları ilə bələdiyyələr arasında uyğunluğun müəyyənləşdirilməsidir.

Bələdiyyələr qanuni formada yerli özünü idarəetmə qurumlarının nizamnamələrinə uyğun və seçki ilə öz mövcudluğunu qoruyub saxlayır. Qeyd olunmalıdır ki, bələdiyyələr ilə bağlı qəbul edilmiş qanunlar mütləq şəkildə elmi əsaslara arxalanmalıdır. Tanınmış fransız tarixçisi, siyasi xadimi Alexis de Tocqueville demişdir ki, "Bələdiyyələr, yəni yerli özünü idarəetmə sistemləri müstəqil xalqların siyasi gücünü təmsil edir. Xalq özü idarəetmə sistemini ərsəyə gətiriblər, lakin yerli idarəetmə institutları olmasa, öz azadlıq ruhunu mühafizə edib gələcək nəsillərə ötürə bilməz". İqtisadi və siyasi cəhətdən inkişaf etmiş dünya ölkələrində deyilir ki, demokratiyanın anlamı "xalqın hakimiyyəti"dir, lakin demokratiyanın məhsulu da elə yerli özünüidarə orqanlarıdır. Digər sözlə ifadə etsək, demokratiyanın əsl mənası, xalqın hakimiyyəti kimi dəyərləndirilir. Bu o deməkdir ki, demokratiyanın mahiyyəti xalqla onun bilavasitə seçdiyi hakimiyyət arasındakı mənaelərin aradan qaldırılması, onlar arasında yaxınlığı təmin etməkdən ibarətdir. Ona görə də bələdiyyələrin mövcudluğu daha demoratik təsisatlar kimi qiymətləndirilir. Aydındır ki, ictimai fəaliyyətlə məşğul olan subyektlərin sferası azaldıqca, insanların mənafelərinin müəyyənləşdirmək asan olur, idarəetmənin səmərəliliyi təmin olunur. Vətəndaşlarla rəhbərlər arasında dinamik və yaxın bağlantıların qurulması nəticəsində vətəndaşlarda siyasi məsuliyyət artır. Bu səbəblərdən ümumi idarəetmə ilə yerli özünü idarəetmənin 3 əsas növü fərqləndirilir:

a) Təbiətin cansız hissəsinin idarə edilməsi (texniki idarəetmə olaraq səciyyələnir);

b) Təbiətin canlı hissəsinin idarə edilməsi (kimyəvi və fiziki idarəetmə olaraq səciyyələnir);

c) Təffəkkürlə idarə olunan sosial idarəemə (şüurlu formada cəmiyyətin idarə olunması kimi səciyyələnir).

"Bələdiyyə" sözü ərəb dilindən dilimizə daxil olub, "bələdçilik etmək", yəni yerli inzibatinin idarəçiliyi anlamına gəlir. Latın dilində isə "munisipalitet"- çətinliyi götürürəm və ya çətinliyi anlayıram mənalarını verir. Adı çəkilən latın dilində termin - "munisipalitet" birinci dəfə Qədim Romada, ərəb dilindəki termin - "bələdiyyə" isə İslam dövlətlərində orta əsrlərdən etibarən istifadə edilir. Bələdiyyələr idarəetmə sahəsində önəmli yer tutur, bunu beynəlxalq təcrübələr də təsdiqləyir. Nümunə olaraq qeyd edə bilərik ki, Amerika Birləşmiş Ştatlarında şəhərləri bələdiyyələr idarə edir. Belə ki, Amerika Birləşmiş Ştatlarında bələdiyyələr korporasiyalar yaradırlar, hansı ki bu korporasiyaların iqtisadiyyatın sahələri üzrə yaradılan korporasiyalarla ortaq olan bir sıra qanuni hüquqları vardır.

## 1.2. Bələdiyyə menecmentinin maliyyə-iqtisadi, informasiya və kadr təminatı

Yerli özünüidarəetmə orqanlarının maliyyə büdcəsinin yaradılması və istifadəsi müvafiq prinsiplərə uyğun həyata keçirilir. Bu prinsiplər: özünüidarə, müstəqillik, aşkarlıq, yerli maraqların ölkə maraqları ilə uzlaşması prinsipləri olaraq təyin olunur.

Özünüidarə prinsipi bələdiyyələrin mövcudiyyətindən üzə çıxır. Azərbaycan Respublikasının qanunvericiliyi, eləcə də digər ölkələrin qanunvericiliyi bələdiyyyələrə öz büdcələrindən müstəqil formada istifadə etmək hüququ verdiyi üçün, bələdiyyələr yerli inzibati ərazilərin problemləri ilə bağlı operativ qərar qəbul edə bilir. Bununla yanaşı, yerli əhali və bələdiyyə idarəçiləri maliyyə ilə bağlı daha məsuliyyətli və ədalətli qərar çıxarmaq zərurəti ilə üzləşir. Səbəbi isə budur ki, bələdiyyə büdcələrindən səmərəsiz istifadə birbaşa olaraq əhalinin problemlərini həll etməyəcək və şübhəsiz onların həyat səviyyəsini pisləşdirəcəkdir.

Yerli büdcə ilə bağlı azad sərəncamvermə hüququ yerli büdcənin müstəqilliyi prinsipinin əsasını təşkil edir. Belə ki, bələdiyyələr özlərinə məxsus olan əraziləri özəlləşdirmək, satmaq və icarəyə vermək hüququna malikdir. Əlavə olaraq heç bir dövlət orqanı bələdiyyələrə öz vəsaitlərindən necə istifadə edəcəklərinə dair hər hansı göstəriş verə bilməz, eləcə də müdaxilələr göstərə bilməz.

Bələdiyyələrin maliyyəsinin aşkarlıq prinsipi isə yerli özünü idarəetmə orqanlarının maliyyə vəsaitlərinin bölgüsünü şəffaf keçirməsində, əhalinin bu bölgülərlə bağlı məlumatlandırılmasında özünü göstərir. Lokal büdcənin layihəsi hazırlanarkən, bələdiyyələrin özünəməxsus ərazilərinə sərəncam verərkən və ya digər bu kimi əhəmiyyət kəsb edən məsələlərlə bağlı qərar qəbul edərkən sakinlər bu prosesdə iştirak etməli, əhaliyə informasiya verilməlidir. Bələdiyyələr qanunvericiliyin müddəalarına əsasən, bələdiyyələrin maliyyə ilinin axrında büdcənin icrası ilə əlaqəli əhaliyə hesabat formasında məlumat verməlidir.

Yerli maraqların Respublika maraqları ilə uyğunlaşması prinsipi, ölkədə keçirilən sosial-iqtisadi siyasətə uyğun olaraq bələdiyyələrin fəaliyyət istiqamətlərinin qurulmasını nəzərdə tutur. Düzdür, bələdiyyələr öz fəaliyyətlərində azad hesab olunur, lakin onlar Respublikada həyata keçirilən tədbirlərdən və siyasətdən asılı formada işlər görməlidir. Ona görə də bələdiyyələrin iştirakı həyata keçirilən tədbirlərin respublikada hakim olan siyasətə uyğun olaraq formalaşması olduqca təbii xarakter daşıyır. Yerli sakinlərin rifahının yaxşılaşdırılması, ölkənin iqtisadi gücünün artırılmasına çalışmaq, yerli özünü idarəetmənin əsas hədəflərindən hesab olunur. Qanunvericiliyin tələblərinə əsasən, bələdiyyələr olduqca diqqətli olmalı, bələdiyyələrə aid olan fəaliyyət dairəsində insanların başlıca yaşayış tələbatlarının qarşılanmasını dövlətin sosial standarlarından aşağı təmin etməməlidirlər. Maliyyə büdcəsinin tərtib olunması, təsdiq və icrası olduqca vacib rol oynayır

Özünüidarəetmə prinsiplərini bələdiyyə statusuna uyğun olaraq reallaşdırmaq, Azərbaycan Respublikasının Konstitusiyası və qanunlar ilə müəyyən edilmiş bələdiyyə səlahiyyətlərini həyata keçimək üçün istifadə edilən maliyyə resursu - yerli büdcədir.

Azərbaycan Respublikasında istifadə olunan büdcə təsnifatı və qanunda nəzərdə tutulmuş ümumiləşmiş prinsiplərdən çıxış edərək yerli büdcə tərtib olunmalıdır. Maliyyə ilinin sonunda yaranan azad (sərbəst) maliyyə qalıqlarına bələdiyyələr özü sərəncam verir. Bələdiyyələr öz büdcələrinə qanunların tələblərinə uyğun olaraq, təsdiq, müzakirə, tərtib və icrasına nəzarət edir.

Bələdiyyə büdcəsinin tərtib olunması və icrasında büdcə sisteminin razılaşdırılmış ümumi prinsipləri və Azərbaycan Respublikasında tətbiq olunan büdcə təsnifatından istifadə olunur. Bələdiyyə yerli büdcənin maliyyə ilinin axrına yaranmış sərbəst qalıqlarına müstəqil formada sərəncam verir. Bələdiyyə yerli büdcəni iqtisadi qanunların normalarına müvafiq olaraq tərtib, müzakirə, təsdiq, icra və onun icrasına nəzarət edir. Yerli büdcənin daxil olmalarına aiddir: fiziki vətəndaşlardan alınan torpaq vergisi, əmlak üçün nəzərdə tutulan vergi, lokal təyinatlı tikinti xammalları üçün mədən vergisi, bələdiyyəyə xas olan müəssisələrdən tutulan mənfəət vergisi, bələdiyyənin hesabındakı obyektlərdə yerləşdirilən reklamlar üçün ödəniş, istirahət mərkəzlərinin rüsumu, mehmanxana rüsumu, avtomobil dayanacaqları ilə bağlı rüsumlar və qanunla müəyyənləşdirilmiş digər ödənişlər, Azərbaycan Respublikasının büdcəsindən verilən dotasiya, subvensiya və ssudalar, Qanunvericiliyə uyğun bələdiyyə əmlakının özəlləşdirilməsindən və icarəyə verilməsindən əldə olunan gəlirlər, lotereyalardan daxil olan vəsait, həmçinin yerli özünüidarəetmə orqanlarının fəaliyyətindən əldə oluna digər gəlirlər, fiziki və hüquqi şəxslərin maliyyə yardımları və qrantları, yerli (bələdiyyə) vergilər və ödənişlərə görə müəyyən edilmiş qaydada hesablanmış faiz və sanksiyalar.

Yerli özünü idarəetmə xərclərinin hansı istiqamətdə təyin olunması bələdiyyələr tərəfindən qərarlaşdırırlır. Bələdiyyələrin müəyyən etdiyi xərc normativləri sırasına aiddir: menecment məsrəfləri, məşiət, idman, yaşamaq ilə əlaqəli xərclər, bağlar, həyətlər, küçələrin saxlanması üçün nəzərdə tutulan xərclər və s.

Əhalinin soial-iqtisadi inkişafı, eləcə də sosial rifahının yaxşılaşdırılması üçün nəzərdə tutulan proqramlara maliyyə vəsaiti ayrıla bilər. Bələdiyyə büdcələrinin

gəlir və xərc istiqamətləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 6 oktyabr tarixli 149 №-li qərarı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının vahid büdcə təsnifatının müvafiq maddələrində aydın olur.

Azərbaycan Respublikasının Vergi Məcəlləsində bələdiyyə vergilərinə aşağıdakılar aid edilmişdir: (8-ci maddə)

1. Respublikanın fiziki şəxslərinin torpaq vergisi;

2. Respublikanın fiziki şəxslərinin əmlak vergisi;

3. Lokal (yerli) cəhətdən əhəmiyyətli olan tikinti xammalları (materialları) üçün mədən vergisi;

4. Bələdiyyələrə aid olan (mülkiyyətində olan) müəssisələrdən alınan mənfəət vergisi.

"Yerli vergilər və ödənişlər haqqında" Qanunda və Vergi Məcəlləsində ödənməli olan yerli vergilər öz əksini tapmışdır. Yerli vergiləri hüquqi və fiziki şəxslər ödəyir, öz vergilərini dövlətə ödədikdən sonra onlara qalan mənfəət əsasında ödəməni həyata keçirirlər. Qeyd edək ki, ödənişlərdən təyinatı üzrə istifadə etmək məcburidir.

Yerli ödəmələrə aşağıdakılar daxildir:

1. Bələdiyyənin mülkiyyəti sərhədləri daxilində olan istənilən növ obyektlərdə divar reklamının nümayişi üçün ödəmə;

2. Bələdiyyə mülkiyyətinin satılmasından, icarə yaxud istifadəyə verilməsi ilə bağlı ödəmə;

3. Bələdiyyələrin xüsusilə ayırdığı torpaq ərazilərində ticarət və digər növ xidmətlərin qarşılığında ödəmə;

4. Bələdiyyələrin mülkiyyətində otel, sanatoriya xidmətləri göstərənlərdən əldə edilən ödəmələr. Qeyd edək ki, hər gün 1,1 manatdan çox olmamaqla bu ödəniş təyin edilməlidir. Növbəti ayın 5-nə qədər qeydiyyatda olan həmin şəxslərdən bu pul tutulmalıdır.

5. Bələdiyyələrin ərazisində fiziki və hüquqi şəxslərə məxsus olan avtomobil dayanacaqları və ya qərara əsasən müəyyən olunmuş hər növ avtomobillərin müvəqqəti və ya daimi dayanacaqları üçün nəzərdə tutulan ödəmələr. Hər nəqliyyat

vasitəsi üçün gün ərzində 0,1 manatdan çox olmayaraq müəyyən edilməlidir. Bu ödənişlər qeydiyyata alınan şəxslərdən bələdiyyələrin təyin etdiyi vaxtlarda yerli büdəcəyə ödənilməlidir.

Bələdiyyələrin maliyyə-büdcə istiqamətlərinin hazırlanmasında Azərbaycan Respublikasının Qanunvericiliyinin normativləri ilə yanaşı, 25.12.2001-ci il tarixli, 238 IIQ saylı Qanunu ilə ratifikasiya edilmiş Yerli Özünüidarə haqqında Avropa Xartiyasının tələblərinə ciddi şəkildə riayət olunmalıdır.

Bu sənəddə aşağıdakılar müəyyən edilmişdir (maddə 9):

1) Yerli özünüidarəetmə orqanlarının ölkənin siyasəti çərçivəsində öz funksiyalarını yerinə yetirərkən büdcələrindən müstəqil şəkildə istifadə etmək hüququ var;

2) Bələdiyyələrin maliyyə vəsaitləri və büdcəsi Qanunvericiliyin təqdim etdiyi səlahiyyətlərə müvafiq olmalıdır;

3) Yerli özünüidarə orqanlarının büdcəsinin müəyyən hissəsi yerli rüsum və vergilər sayəsində formalaşmalıdır, ona görə də qanunla müəyyən edilmiş həddə ödənişlər tələb etmək onların haqqıdır;

4) Yerli idarəetmə orqanları vəzifələrini yerinə yetirərkən maliyyə sistemləri kifayət qədər çevik olmalıdır, səlahiyyətlərin icrası zamanı baş verən xərc dəyişikliklərini izləmək mümkün olmalıdır;

5) Maliyyə tarazlaşdırılması proseslərinin işə salınması zərurilik təşkil edir. Maliyyə büdcəsi daha zəif olan bələdiyyələrin müdafiəsi, xərclərin qeyri-bərabər paylanmasının nəticələrinin analizi unikal tədbirlərə əl atılmasına səbəb olur. Bu tədbir elə yerli özünüidarəetmə orqanları özləri seçməli və dövlət tərəfindən müəyyən olunmuş tədbirlər məhdudlaşdırılmamalıdır.

Aydındır ki, sadalanan müddəalar demokratik dövlətin həyata keçirtdiyi iqtisadi, xüsusilə də maliyyə siyasətinin əsas prinsiplərini təşkil edir. Bu prinsiplərin reallaşdırılması hər bir ölkənin öz qanunvericiliyində öz əksini tapır.

Bələdiyyələrin maliyyə əsaslarından biri də qanunlarla təyin edilmiş qayda ilə yaradılan məqsədli büdcədənkənar fondlardır. Bələdiyyə büdcələr üçün nəzərdə tutulan gəlirlər və ödənişlər bu fonda aid deyildir. Cərimələr, inzibati ödəmələr,

könüllü qaydada ödənilən məbləğlər və sair bu fondların tərkibinə aid ola bilər. Əhalinin sosial müdafiəsi məqsədləri, inzibati ərazi daxilində sahibkarlığın inkişaf etdirilməsi məqsədlərinə görə bu fondlara müraciət edilə bilər.

"Bələdiyyələrin statusu haqqında", "Büdcə sistemləri haqqında", "Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında" qanunlarla bələdiyyələrin formalaşması tənzimlənir.

**Cədvəl 1:Bələdiyyələrin mülkiyyəti obyektləri**

| Bələdiyyə Mülkiyyəti | | |
|---|---|---|
| Bələdiyyələrə aid əmlak | Yerli bələdiyyələrin büdcə vəsaitləri | Başqa daşınar və ya daşınmaz əmlak |
| Bələdiyyələrin müəssisələri | Bələdiyyələrin büdcədənkənar vəsaitləri (fondları) | Bələdiyyələrin bankları |
| Bələdiyyələrin resurs və torpaqları | Təhsili, idman, mədəniyyət sahələri ilə bağlı bələdiyyə təşkilatları | Başqa maliyyə kredit təşkilatları |

**Mənbə:**“Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanunu, Bakı-2 iyul 1999-cu il

Dövlət və bələdiyyə idarəetməsinin informasiya təminatının bazasını informasiya resursları təşkil edir. Bələdiyyələrin fəaliyyətində onları informasiya resursları ilə təmin edəcək informasiya sistemlərinin işlənilib ərsəyə gətirilməsi önəm daşıyır. Məsələnin səmərəli həllində hesablama texnikası, informasiya texnologiyalarından istifadə etmədən optimallığa nail olmaq qeyri-mümkün hesab edilir.

Dövlət və bələdiyyə sistemi üçün idarəetmə qərarlarının hazırlanması üçün aşağıdakı informasiyaları özündə ehtiva edən məlumatlar lazımdır:

- İdarə edilən obyektin məqsəd və vəzifələri;
- Obyektin idarəedilmə sərhədləri, fəaliyyət ölçüləri;
- Obyektin inkişaf prinsipləri, fəaliyyət üsulları;
- Müəssisənin fəaliyyət mühitinin dəyişmələri;
- Digər (alternativ) fəaliyyət üsulları;
- Mümkün olan həll strategiyaları;
- Alternativ variantların realizə nəticələri;

- Ən optimal alternativin seçilmə üsulu.

Bələdiyyə eləcə də, idarəetmə sahəsində müasir informasiya-kommunikasiya sistemlərindən istifadə olunması bələdiyyələrin təşkilati halqalarına olduqca təsir edir. Şəffaflığı və aşkarlığın təmin olunması məhz elə İKT-nin fəaliyyətinin yüksək səviyyədə aparılması ilə xarakterizə olunur. Bununla yanaşı, əhali ilə rəhbərliyin qarşılıqlı səmərəli fəaliyyətinin təşkil olunmasında elektron xidmətlərin rolu böyükdür, bu xidmətlər daha çox yerli sakinin mənafelərini müdafiə etmək üçün əvəzsiz vasitədir. Yoxsulluğun azaldılması, yerli əhalinin hər tərəfli inkişafı üçün ən tutarlı vasitələr elə bu texnalogiyalardır. İnformasiya texnologiyalarının səmərəli tətbiqi sahəsində tədbirlər görülmüş, qanun və dövlət proqramları qəbul olunmuşdur. Azərbaycan Respublikasının İnkişafı Naminə İnformasiya və Kommunikasiya Texnologiyaları üzrə Milli Strategiya (2003-2012) informasiya cəmiyyətinin qurulmasının əsasını qoymuşdur. Bu strategiyanın əsas məqsədi İKT-dən düzgün istifadə etməklə demokratik quruculuğa yardımçı olmaq, inkişafa kömək etməkdir. Milli Strategiyanın təmin olunması məqsədilə Azərbaycan Respublikasında 2005-2008-ci illər üçün rabitə və informasiya texnologiyalarının inkişafı üzrə Dövlət Proqramı qəbul olunmuşdur. Proqramın fəaliyyət növləri aşağıdakı istiqamətlərdir:

- rabitə və informasiya texnikası sferasında struktur-iqtisadi islahatların aparılması;

- rabitə və informasiya texnologiyaları sferasında yeni texniki cihazların sınaqdan keçirilməsi;

- müasir layihələr hazırlanması, hansı ki Azərbaycanın informasiya cəmiyyətinə keçidi üçün lazımlı olmalıdır;

Daha sonra 2010-2012-ci illər arasında müvafiq olaraq yenidən rabitə və informasiya texnologiyaları üzrə Dövlət Proqramı qəbul olunmuşdur. Bu proqrama əsasən də aşağıdakı fəaliyyət növləri üzrə istiqamətlər verilmişdir;

- Poçt infrastrukturunun və kommunikasiya xidmətlərinin səviyyəsinin yüksəlməsi;

- Yerli idarəetmə, eləcə də dövlətin digər ictimai əlaqələr ilə bağlı qurumlarında İKT-nin tətbiqi, elektron xidmətlərin üstünlüyünün təmin olunması;

- İnformasiya cəmiyyətinə inteqrasiya etmək üçün əlverişli mühitin yaradılması;

- Rəqabət yönümlü və ixrac potensiallı İKT-nin gücləndirilməsi;

- Bütün müəssisələrin, təşkilati-hüquqi vəziyyətindən asılı olmayaraq Azərbaycan Respublikası vətəndaşlarının informasiya ilə təmin olunmasına əlverişli şəraitin qurulması.

Avtomatlaşdırılmış bələdiyyə əhalinin, dövlətin, digər bələdiyyələrin qarşısında etibarlı informasiya mənbələrinə görə fərqlənir, insanların informasiya tələbatını tamamilə ödəyir. Azərbaycanda "Elektron bələdiyyə" ideyasının həyata keçirilməsi mümkündür, çünki hazırda "Elektron hökümət" mükəmməl formada həyata keçirilir. "Elektron bələdiyyə" konsepsiyası aşağıdakı aspektlərin həllinə yönəlmiş ola bilər:

1) Müvafiq struktura malik bələdiyyələrin ərazisində bir-birindən fərqli informasiyaların toplanması, təsnifləşdirilməsi, dövri şəkildə təzələnməsi və təhlili, verilənlər bazasının vahid sistemə salınması;

2) İdarəetmə halqalarının uyğun fəaliyyət istiqamətləri və ərazilər üzrə çevik informasiya ilə təmin olunması;

3) Əhəmiyyətli idarəetmə qərarlarının informasiya təminatı nəticəsində verilməsi;

4) Yerli özünü idarəetmə orqanlarında baş verən təbii, sosial-siyasi, iqtisadi proseslərin analizi;

5) Digər informasiya sistemləri ilə bağlantıların onlayn şəkildə qurulmasının səmərəli təşkili və s.

12.12.1999-cu il tarixdə Respublikamızda ilk dəfə bələdiyyə seçkiləri baş tutdu. Bu mütərəqqi hadisə Azərbaycanın hüquqi və demokratik dövlət olması yolunda atılan ən böyük addımlardan biridir. Seçilmiş bələdiyyələr iqtisadi, sosial və digər sahələrdə böyük məsuliyyəti öz üzərlərinə götürdülər, bu institutun inkişafına təkan verdilər. Yerli özünüidarəetmənin inkişafında ən mühüm məsələlərdən biri düzgün kadrların vəzifələrə gətirilməsidir.

Dövlət müstəqilliyimiz möhkəmləndikcə, həyata keçirilən islahatların surəti artdıqca idarəetmə sisteminin təkmilləşdirilməsi, səmərəliliyinin təmin olunması ən mühüm faktorlardan birinə çevrilmişdir.

Bələdiyyələrin işinin idarə olunmasında kadrların hazırlığı 2 cür həyata keçirilir:

1. Bələdiyyə fəaliyyətinin tam şəkildə təşkili , fəaliyyətlərin əlaqələndirilməsi ilə bağlı ümumi idarəçilik sferasında mütəxəssislərin hazırlanması;

2. Ayrı-ayrı fəaliyyət sahəsində ixtisaslaşmış bələdiyyə qulluqçularının hazırlanması.

Bələdiyyə idarəetməsi üzrə kadr hazırlığının istiqamətləri müxtəlif olduğundan, ilk növbədə bələdiyyələrin fəaliyyət istiqamətləri tam formada təşkil olunmalıdır, ümumi bir istiqamət hazırlanmalıdır, hansı ki, əhalinin və dövlətin xeyrinə olmalıdır. Nəticədə əhali bələdiyyələrin onlar ilə əməkdaşlığına, cavabdehlik daşıdığına inanacaqdır. Bələdiyyə qulluqçuları müstəqil qərar qəbul edə bilməli, daim axtarışa hazır olmalıdır. Bələdiyyə qulluqçuları kifayət qədər təcrübəli və hüquqi cəhətdən məlumatlı olmalıdır, çünki onlar digər dövlət orqanları ilə də mütləqdirki əlaqədə olacaqlar.

Azərbaycanda rasional bələdiyyə idarəçilinin yaradılmasına və onların formalaşmasına aşağıdakı əsas amillər təsir edir:

1) Qanunlarda olan boşluqlar aradan qaldırılmalı, müvafiq normativ baza işlənib hazırlanmalıdır;

2) Seçkili icra orqanlarının praktikasından əldə olunan nəticələrin analizi və təcrübələrin toplanması nəticəsində nəzəri aspektlərin praktikada reallığa qovuşdurulmasının təmin edilməsi. Kadr siyasətinin aktivləşdirilməsi və ya başqa sözlə desək, ixtisaslaşdırılması ölkə siyasətinin əsas islahatlarından biri olmuşdur.

"Dövlət və bələdiyyə" idarəetməsi ixtisası üzrə təhsil alanların peşə hazırlığı bir sıra tələbləri ödəməlidir:

1. Həm nəzəri, həm də praktiki biliklərə yiyələnməlidir;

2. Mütləqdir ki, müasir rəqabət bazarı və ya bazar iqtisadiyyatı ilə bağlı müəyyən fikirlərə sahib olmalıdır;

3. Dövlətin idarəçilik prinsiplərini, iqtisadi gücünün mənbəyini anlamalıdır;

4. Bələdiyyə idarəetməsinin bazar iqtisadiyyatı mühitində rolunu dərindən başa düşməlidir;

5. Mənsub olduğu müəssisənin güclü və zəif tərəflərini araşdırmalı, bir strategiya hazırlayıb onu icra mərhələsinə qədər gətirib çıxarmalıdır;

6. Müasir analitik metodlardan istifadə etməyi bacarmalı və izah etməlidir;

7. Mütəxəssis idarəetmə sahəsi ilə bağlı problemlərin həlli metodlarını bilməli, praktikada istifadə etməyi bacarmalıdır;

8. Mütəxəssis yerli əhali ilə mədəni və etika çərçivəsində davranmalı, zəngin biliyindən onların mənafelərini müdafiə etmək üçün istifadə etməli, düzgün kadrları seçməyi bacarmalıdır;

9. Mühasibat uçotunun prinsip və işləmə mexanizminə bələd olmalı, öz sferasında idarəetmənin qeydiyyatını və uçotunu həyata keçirməlidir.

Dövlət siyasətinin əsas məqsədlərindən biri iqtisadi və sosial cəhətdən demokratik dövlətin inkişafı üçün yerli özünüidarəetmə orqanlarının səmərəliliyini yüksəltməkdən ibarətdir.

Kadrlar ilk növbədə yüksək peşəkarlıq göstəricilərinə nail olmalı, bu yüksək göstəricilərə çatmaq üçün tədris proqramları və planları hazırlanmalı, yeni texnologiya və üsullardan istifadə edilməlidir.

Dövlət və bələdiyyə idarəetməsində kadrlar adətən 3 cür hazırlanır:

1. Əyani;

2. Qiyabi;

3. Distant.

Qeyd edək ki, bələdiyyə idarəçiliyində kadrlar 3 səviyyədə hazırlanır:

1. Birinci ali təhsil;

2.İkinci ali təhsil;

3. İxtisasartırma kursları.

Bakalavr, diplomlu mütəxəssis, magistr pillələrindən ibarət olan baza səviyyəsi üçün fənlər təyin edilməlidir.

### 1.3. Yerli özünüidarəetmə və bələdiyyələrin funksiyaları və səlahiyyətləri

Yerli özünüidarəetmə orqanlarının müstəqil fəaliyyəti üçün əsas məsələlərindən biri də səlahiyyət məsələsidir. Bələdiyyələrin səlahiyyətləri əslində elə onun funksiyalarını özündə birləşdirir.

Yerli özünü idarəetmə orqanları müəyyən şərtlərlə dövlətlə əlaqəli olurlar. Bu şərtlərdən başlıcası qanunvericilikdə müəyyən olunmuş səlahiyyətlərini realizə etməklə, dövlətin qəbul etdiyi qərarları yerli səviyyədə həyata keçirir, dövlətin vəzifə və funksiyalarını icra etməsinə yardımçı olurlar. Bələdiyyələrin istər dövlətlə, istərsə də əhali ilə olan münasibətlərdə qanunçuluq prizması təmsil olunur.

Yerli özünüidarəetmə orqanlarının maliyyə büdcəsi bələdiyyələrin səlahiyyətlərinə uyğun olmalıdır. Azərbaycan Respublikasının Konstitusiyasında bələdiyyələrin bir çox prinsipi öz əksini tapır. Yerli özünüidarəetmənin sərbəstliyi, rasionallığı və çevikliyi təmin etmək üçün mütləq prinsipləri yerinə yetirmək lazımdır. Bələdiyyələrin səlahiyyətləri daxilində olan vəzifələrdən aşağıdakıları qeyd oluna bilər:

- konstitusiyalı idarəetmənin stabilliyinin saxlanılması;
- vətəndaşları bələdiyyələrlə bağlı hüquqlarından irəli gələn hərəkətlərin təmin olunması;
- yerli sakinlərə zəruri həyat əhəmiyyətli tələbatlarının ödənilməsi və mənafeələrinin qorunması üçün şəraitin yaradılması;
- əhalinin sosial müdafiəsi üçün vacib tədbirlərin görülməsi;
- yerli idarəetmə orqanları üçün nəzərdə tutulan kadrların hazırlanması.

Yerli idarəetmənin vəzifələri funksiyaları yaradır və bələdiyyələrin əsas istiqamətlərini göstərir. Sözü gedən bələdiyyələrin funksiyaları aşağıdakı punktlardır:

- lokal xarakter daşıyan məsələlərin həllində sakinlərin də aktiv iştirakına şərait yaradılması;
- yerli özünüidarəetmə orqanlarını mülkiyyəti və maliyyə vəsaitlərinin idarəsinin təşkili;
- yerli özünü idarəetmə orqanlarının hərtərəfli inkişafına şərait yaratmaq;

- məişət, mədəni və digər xidmətlərə olan tələbatın ödənilməsinə yardımçı olmaq;

- bələdiyyələrin idarəetməsinin siyasi və hüquqi mənafelərini müdafiə etmək və s.

Bələdiyyələr iclaslarının əsas səlahiyyətləri bunlardır:

- yerli vergi və ödəmələri müəyyənləşdirmək;

- yerli rifahın inkişafı proqramların qəbulu və icrası;

- yerli iqtisadi proqramların qəbulu və icrası;

- yerli ekoloji proqramların qəbulu və icrası;

- yerli mədəni proqramların qəbulu və icrası.

Qeyd edilən bələdiyyə səlahiyyətlərinin əsas xüsusiyyətləri aşağıdakılar hesab edilir:

- səlahiyyətlərin müəyyənləşdirilmə qaydası;

- məxsusi və həvalə olunmuş, məcburi və fakultətiv səlahiyyətlərin nisbətin təyin olunması;

- bələdiyələrə verilmiş səlahiyətlərin ümumi konteksti və reallaşdırma qaydaları .

Hüquqi sistemlərin fərqliliyinə görə bu səlahiyyətlərin xüsusiyyətləri fərqlənir. İngilis-sakson hüquq prinsipində parlament suverəndir. Digər hakimiyyət qurumları həvalə vermə üsulu ilə səlahiyyətlərini qazanırlar. Həmin ölkələrdə həvalə etmə prinsipi bələdiyyələrə də tətbiq olunur. Bu ölkələrdə müsbət (pozitiv) tənzimlənmə yerli özünüidarəetmə orqanlarının səlahiyyətlərinə təsir edir. Belə ki, intra veres (yəni onlara verilmiş səlahiyyətlər daxilində hərəkət) şəraitində onların fəaliyyəti qanunidir. Qanunvericilikdə olmayan istənilən fəaliyyət növü ultra veres (yəni onlara verilmiş səlahiyyətlərdən kənar hərəkət) başlığı altında xarakterizə olunur.

Əsasən kontinental hüquqi sistemi olan Qərbi Avropa ölkələri bələdiyyələrinə mənfi (neqativ) tənzimləmə yolu ilə təsir edir. Belə ki, bu zaman bələdiyyələr qanunla yasaqlanmamış, digər hakimiyyət qurumlarının səlahiyyətlərinə verilməmiş istənilən fəaliyyətlə məşğul ola bilər. Dövlətin nəzarəti və iştirakı ilə bələdiyyələrin müvafiq səlahiyyətləri müəyyənləşdirilir, çünki xalq hakimiyyətin yeganə

mənbəyidir və bunu dövlət öz ərazisi daxilində bərqərar etməlidir. Dövlət yerli özünüidarəetmə orqanlarından müəyyən minimum səlahiyyətləri məcburi formada yerinə yetirməsini tələb edir. Yerli özünü idarəetmə orqanları bu səlahiyyətlərdən imtina edə bilməzlər. Lakin istisna hallar təbii ki, mövcuddur. Belə olduğu halda qanunla müəyyən edilmiş qaydada əgər bələdiyyələr, verilən səlahiyyətləri yerinə yetirmək gücündə deyilsə, onda aşkar formada bu səlahiyyətlərdən imtina edilə bilər. Bu zaman həmin səlahiyyətlərin yerinə yetirilməsi digər müvafiq dövlət orqanlarına və ya digər bələdiyyələrə verilə bilər. Bununla yanaşı səlahiyyətlərin təhvil verilməsi nəticəsində meydana gələn minimum məcburi xərcləri, əhalinin ayrı-ayrı subyektlərinə təsir dərəcəsini müəyyənləşdirir. Adı çəkilən minimal inzibati, maliyyə (subsidiyalar və dotasiyalar), qanun yolu ilə tənzimlənir. Belə ki, məcburi səlahiyyətlər aşağıdakı hallarda icra oluna bilmir:

- Məhkəmə ilə bağlı təhqiqat işləri ərəfəsində;
- Yerli özünü idarəetmə orqanlarının fəaliyyətinin vaxtından öncə dayandırlması nəticəsində.

Məcburi səlahiyyətlərdən əlavə, daha doğrusu məcburi olmayan səlahiyyətlər isə fakultətiv səlahiyyətlər adlandırılır. Bu səlahiyyətlər tamamilə əhalinin tələbatlarından və vəziyyətdən (situativ idarəetmə) asılı olaraq həyata keçirilir və keçirilməyə bilər.

Son illərdə Avropa Birliyinin ölkələri ictimai xarakter daşıyan vəzifə və funksiyaların ən aşağı səviyyədə həyata keçirilməsinin tərəfindədir. Bu prinsip subsidiarlıq prinsipi adlanır ki, klassik formada daim mövcud olmuşdur. Bu prinsipdə səlahiyyətləri yerli özünüidarəetmə orqanlarına dövlət vermir, əksinə yerli özünüidarəetmə orqanları özləri həll edə bilmədikləri işləri dövlətin üzərinə "yükləyir". Lakin onu qeyd etmək lazımdır ki, subsidiarlıq prinsipi reallıqda o qədər də keyfiyyətli xarakter daşımır, əksinə nəzəri bir prinsip olaraq öz mövcudiyyətini qoruyub saxlayır.

Yerli özünü idarəetmə orqanlarının səlahiyyətləri mahiyyət etibarilə 3 qrupda fərqləndirilir.

İlk olaraq ta qədimdən bələdiyyə işlərinin tərkibinə daxil olan kommunal xidmətlər, lokal əhəmiyyət daşıyan tikinti (məsələn yolların salınması), sosial-məişət və mədəni tikililərin inşa olunması, abadlıq işlərinin aparılması və s. ilə bağlı olan səlahiyyətlərdir. Əslində əvvəllər bu sahədə dövlətlər arasında fərq elə də çox deyildi. Lakin indiki dövrdə bu sahələrdə özəl müəssisələr dövlətlə rəqabət apara biləcək gücə sahibdirlər.

Sosial sfera, səhiyyənin təşkili, təhsil sahəsi, məşğulluq sferası, ikinci qrup səlahiyyətləri hesab olunur. Bu səlahiyyətlər sırf dövlət prinsipi ilə bağlıdır. Lakin onu qeyd etmək lazımdır ki, birinci qrup səlahiyyətlərdən fərqli olaraq bu səlahiyyətlərin realizə olunmasında dövlətlər arasında fərqliliklər böyükdür. Nümunə olaraq göstərə bilərik ki, Şimali Avropa ölkələrində, başqa sözlə desək Skandinaviya ölkələrində və Danimarkada səhiyyənin təşkili, əhalinin sağlamlığının müdafiəsi ilə bağlı məsələlərə yalnız yerli özünüidarəetmə orqanları cavabdehdir, dövlət isə dotasiyaların təyin olunması ilə öz dəstəyini göstərir. İtaliya və Fransa kimi Avropa ölkələrində qəti şəkildə səhiyyə sahəsinə müdaxilə etmirlər. İngiltərədə ibtidadi və orta təhsilin tənzimlənməsi bütövlükdə yerli özünüidarəetmə orqanlarının səahiyyətlərinə aiddir, lakin Fransa da isə bu belə deyil. Fransa təhsil sahəsinə yalnız maddi anlamda texnologiya bazasının inkişafında təsir göstərir, dövlət proqramlar qəbul edərək müəllimlərin işə qəbulunu həyata keçirir. Dünyanın digər ölkələrində qeyd edilən sahələrdən başqa səlahiyyətlər də yerli özünü idarəetmə orqanlarına verilir.

Səlaiyyətlərin üçüncü qrupu sırf XX əsrin ortalarından etibarən dövlətin həll etdiyi məsələlərin araşdırılmasına yerli özünüidarəetmə orqanlarının cəlb edilməsi ilə bağlı yaranan səlahiyyətlərdir. Ekologiyanın qorunması, iqtisadi ərazi planlaşdırılması, inkişafda iştirak və başqa bu kimi səlahiyyətlər daxildir. Keçən əsrin axırlarından başlayaraq yerli özünü idarəetmə orqanlarına xarici iqtisadi münasibətlər və qlobal mədəni əlaqələrin qurulması sferasında da müəyyən səlahiyyətlər verilməyə başlanılır. Əslində bələdiyyələrə verilən səlahiyyətlərin 3 qrupuna dövlət tərəfindən həvalə olunmuş səlahiyyətləri də aid edə bilərik. Dövlət aşağıdakı səlahiyyətləri əlavə edə bilər:

- Vergilərin toplanması (Skandinaviya dövlətləri);

- Statistik göstəricilərin aparılması;

- Vətəndaşlıq statusu ilə bağlı bəzi aktların qeydiyyatının aparılması;

- Polis orqanlarının bəzi funksiyaları;

- Hərbi qulluğa çağırma və s.

Səlahiyyətlərin təhvil verilməsi qanunvericiliklə müəyyən olunur və zəruri olaraq aşağıdakı məsələləri özündə birləşdirir:

1) həvalə edilmiş səlahiyyətlərin reallaşdırılması üçün lazım olan maliyyə vəsaitinin təmin olunması;

2) dövlət tərəfindən gücləndirilmiş nəzarətin olması.

Ümumiyyətlə, səlahiyyətlərin icra olunması və düzgün formada reallaşdırılması da müxtəlif üsullarla həyata keçirilə bilir. Bir sıra əsas variantda ümumiləşdirilməsi mümkündür. Səlahiyyətlərin yerinə yetirilməsi bələdiyyələrin icra aparatı vasitəsilə həyata keçirilir. Onun fəaliyyəti isə inzibati xidmətlər tərəfindən müvafiq maddələrlə təmin olunur. Qayda olduqca emprik xarakter daşısa da, hər zaman yaxşı və operativ effekti göstərmir.

Bələdiyyələr yerli özünüidarəetmə orqanı olaraq dövlət qarşısında hesabat verməli olan qurumdur. Bələdiyyə nəzarət edir, idarəetməyə vəzifəli şəxsləri təyin edir və s. Lakin bələdiyyələrin müstəqil büdcəsi olur (adətən bu bələdiyyənin öz maliyyə vəsaitləri hesabına formalaşır), ərazilərin idarə edilməsində də olduqca müstəqil hərəkət edirlər. Ən yaxşı nümunə olaraq, yerli özünü idarəetmə orqanlarının əsasını qoyduğu təhsil müəssisələri, Fransa, İtaliya kimi bir çox ölkələrdə bina tikintisi və göstərilən sosial xidmətləri göstərə bilərik. Qarışıq formalı mülkiyyət formaları da yaradılır, əsas səbəb isə bəzi səlahiyyətləri yalnız bu yolla yerinə yetirilə bilməsidir. Həmin qurumların (qarışıq mülkiyyət formalı olan təşkilatlar) maliyyə vəsaitləri özəl və ictimai işlərlə məşğul olan investorlar tərəfindən formalaşdırılır. Lakin yerli özünüidarəetmə orqanları heç vaxt nəzarəti əldən vermirlər.

Bir sıra səlahiyyətlər mövcuddur ki, bu məqamlarda bələdiyyələri özəl təşkilatlara kompensasiya verərək, həmin səlahiyyətin icrasını tələb edə bilərlər. Bu

halda bələdiyyələrin işi sadəcə nəzarət mexanizmini yerinə yetirməkdən ibarət olur. Bir çox hallarda güzəştlər tətbiq olunur, hətta maliyyə təsirləri də edilir. Özəl sahibkarların bələdiyyələrin işinə daxil edilməsi əsasən, gəlir gətirən sahələrdə özünü göstərə bilər. Bu sahələrə nəqliyyat, kommunal xidmətlər və s. aiddir. Bələdiyyələr başqa  işlərini yerinə yetirmək üçün (məsələn, ekspertiza-tədqiqat işləri) sifarişçi olaraq çıxış edirlər. Podratçı qismində həm dövlət, həm də özəl müəssisələr ola bilər.

Azərbaycan Respublikasının Konstitusiyasına nəzər yetirsək, 35-ci maddəsində təsdiq olunmuşdur ki, əmək hüququnun reallaşdırılmasında dövlət orqanları ilə yanaşı bələdiyyələrdə iştirak edirlər. Bələdiyyələrə qanunvericiliyimizdə öz maliyyə imkanlarına və iqtisadi potensialına görə hüquqi şəxs yaratmaq hüququ verilmişdir. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanunun 34-cü maddəsinə əsasən bələdiyyələr qanunvericilikdə qadağan edilməmiş və ya təsərrüfat fəaliyyət ilə məşğul ola bilərlər, yenidən təşkil və ləğv olunması məsələlərini özləri həll edə bilər.

Bələdiyyələrin sosial sferada daha bir istiqamət fəaliyyəti təminatı az olan ailələrə maddi yardımın göstərilməsidir. Məlumdur ki, bələdiyyələr dövlətin digər idarəetmə orqanlarından fərqli olaraq, əhalinin vəziyyətinə daha operativ reaksiya verə bilirlər. Müvafiq olaraq təyin olunmuş dövlət qurumlarına birbaşa bələdiyyələr köməklik edə bilər, çünki onlar ərazilərdəki əhalinin şəraiti ilə bağlı daha çox məlumatlıdır. Kimsəsiz insanları, az təminatlı ailələri, sosial cəhətdən gücsüz yaşlıların təyin edib onlara yardım edə bilər. Sosial xidmət mərkəzi yaradaraq bu kateqoriyadan olan insanlara maddi yardım etmək, onlara ünvanlı sosial yardım almalarına şərait yaratmaq kimi vəzifələri yerinə yetirə bilərlər. Sosial səlahiyyətlər bələdiyyələrə həmçinin aşağıdakı sferalarda insanlara xidmət göstərməsini diqtə edir:

- mənzil-kommunal;
- sağlamlığın mühafizəsi;
- təhsil sahəsi;
-mədəniyyət müəssilərindən istifadə və s.

Xalq hakimiyyətinin tərkib hissəsi olan bələdiyyə idarəetməsi sosial sahədə də böyük səlahiyyətlərə malik olur. Azərbaycan Respublikasının Konstitusiyasının 144-cü maddəsinə əsasən bələdiyyələr yerli sosial inkişaf proqramları hazırlayır, qəbul edir, icrasını təmin edir. "Bələdiyyələrin statusu haqqında" qanunun 4-cü maddəsində bu sahə üzrə səlahiyyətlər daha da konkretləşdirilir.

Bələdiyyələr tərəfindən ərsəyə gətirilən sosial inkişaf proqramlarının əsas məqsədi həm sosial siyasətin istiqamətlərinə uyğun olmalı, həm də yerli əhəmiyyətli sosial tərəqqi məsələlərinin həll olunmasından ibarətdir.

Azərbaycanda bələdiyyələrin səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyası, "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunu, Bələdiyyələrin Nizamnaməsi və digər qanunvericilik aktları ilə müəyyən edilir. Bələdiyyələrin səlahiyyətləri aşağıdakı bir sıra məsələləri həll yoluna qovuşdurmalıdır:

1) bələdiyyə iştirakçılarının səlahiyyətlərinin tanınması, səlahiyyətlərin itirilməsi (qanunda təsbit olunmuş hallarda), səlahiyyətlərinə xitam verilməsi;

2) yerli özünü idarəetmə orqanının reqlamentinin təsdiqlənməsi;

3) yerli özünü idarəetmə orqanının sədrinin və onun müavinlərinin, komissiyaların təyin olunması;

4) lokal vergi və ödəmələrin təyini;

5) yerli büdcənin həyata keçirilməsi ilə bağlı hesabatların təsdiqlənməsi;

6) bələdiyyə əmlakına sahiblik və onun haqqında sərəncam;

7) yerli sosial müdafiə layihələrin qəbul edilməsi və icrası;

8) yerli iqtisadi inkişaf layihələrin qəbul edilməsi və icrası;

9) yerli ekoloji layihələrin qəbul edilməsi və icrası.

Bələdiyyələrə qanunvericilik və icra hakimiyyəti orqanları əlavə səlahiyyətlər də verə bilər. Bu səlahiyyətlərin yerinə yetirilməsi üçün mütləqdir ki, əlavə maliyyə vəsaitləri bələdiyyyələr üçün ayrılmalıdır. Əlavə səlahiyyətlərin icrasına qanunvericilik və icra hakimiyyətləri nəzarət edirlər.

Bələdiyyə mülkiyyətinin formalaşmasında aşağıdakı funksiyalar nəzərə alınmalıdır:

1) İqtisadi funksiya;

2) Sosial funksiya;

3) İdarəetmə funksiyası.

Bu mülkiyyətin formalaşmasında təkrar istehsal iqtisadi funksiyası mühüm rol oynayır. Yerli özünüidarəetmə orqanlarının təkrar istehsalı 3 sferanı özündə əks etdirir:

- Maddi və qeyri-maddi məhsulların təkrar istehsalı;
- Əməyin (əmək resurslarının) təkrar istehsalı;
- Mülkiyyət münasibətlərinin təkrar istehsalı.

Yerli əhalinin maddi və qeyri-maddi məhsulların istehsalına imkan vermək bələdiyyələrin əsas iqtisadi funksiyasıdır. Müəyyən bir bələdiyyə ərazisində yaşayış fondları, kommunal-məişət xidməti, sağlamlığın müdafiəsi kimi məcmu işlərin təkrar istehsalında iştirak edir. Ərazinin təbii mühiti, insanların məskunlaşma mühitinin təkrar istehsalını da bələdiyyə mülkiyyəti təmin edir.

Sənaye infrastrukturunun, iqtisadiyyatın səmərəli formalaşmasına təkan vermək də iqtisadi funksiyanın tərkib hissəsidir.

Bələdiyyələrin sosial funksiyalarına aşağıdakılar daxildir:

- Sosial tələbatın ödənilməsi;
- Yerli əhalinin sosial müdafiəsi.

Bələdiyyələrin sosial funksiyası əhalinin bütün tələbatlarını təmin edə bilər. Bu əhalinin tələbatlarını ödəmək üçün təsis olunmuş sosial obyektlər sosial siyasətin layiqli həyata keçirilməsinə təkan verir. Bələdiyyələrin sosial funksiyasına aid edilən yerli əhalinin sosial müdafiəsi kontekstində də bələdiyyələr heç də geri qalmır. Bələdiyyə əhalisinin hər bir fərdi üçün sosial müdafiə ilə bağlı şərait yaradır.

Bələdiyyələrin idarəetmə funksiya əslində müzakirə xarakteri daşıyır. Bu prosesin yüksəlişinə nəzər yetirmək üçün 2 baxış bucağından baxmaq lazımdır. İlki bələdiyyə idarəetməsinin öz təbiəti ilə bağlıdır. Digəri isə dövlətin bələdiyyələrin idarəetməsində təsiredici roludur. Bütün bu deyilənlərdən belə nəticəyə gəlmək olar ki, idarətemə funksiyası universaldır. Müxtəlif idarəetmə halqaları üçün əlaqə və münasibətlər bu universallığın bir parçasıdır. Bələdiyyələrin formalaşmasında daxili

və xarici, obyektiv və subyektiv amillərin qarşılıqlı münasibətlərinin dərindən anlaşılması idarəetmədə səmərəliliyə gətirib çıxarır.

# II FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASINDA YERLİ ÖZÜNÜİDARƏETMƏ SİSTEMİNİN MÜASİR İNKİŞAF DİNAMİKASININ TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

## 2.1. Azərbaycan Respublikasında bələdiyyə sisteminin iqtisadi və hüquqi aspektləri

Azərbaycan Respublikası uzun illər ərzində Sovet İttifaqının tərkibində olduğu üçün özünün demokratik və müstəqil hüquqları olmamışdır. Avtoritar idarəetmə sisteminin bərqərar olunması nəinki ölkəmizin siyasi həyatında, həm praktiki bir çox sahələrdə öz təsirini göstərmişdir. Şübhəsiz ki, Azərbaycanın Sovet İttifaqının tərkibində olmasının mənfi xüsusiyyətlərindən ən başlıcası elə budur. Azərbaycanda SSRİ-nin tərkibində olduğu dönəmdə bütün siyasi sistemləri Kommunist Partiyası öz əlinə almışdı, nəzarətçilik yalnız KP-yə tapşırılmışdı. Keçmiş Sovet İttifaqı Konstitusiyasına əsasən dövlət orqanları aşağıdan yuxarıya doğru nümayəndəliklərlə sıralanmışdı. İstənilən coğrafi seksiyalar və idarəçilik sistemi Sovet İttifaqına tabe idi.

Ölkəmiz müstəqillik əldə etdikdən sonra aparılan müşahidələrə əsasən deyə bilərik ki, SSRİ-nin tərkibində olduğumuz dönəmlərdə bələdiyyələrin əhali qarşısında öhdəlikləri çox olub. Sovet bələdiyyələri olduqca güclü idarəçilik sistemi qurmuş, əhalinin rifahına əhəmiyyətli dərəcədə təsir etmişdir.

Yerli özünü idarəetmə orqanlarının dövlət idarəetmə sistemində önəmi yaxşıca başa düşmək üçün onun bir sıra xüsusiyyətləri və aspektlərini xüsusilə nəzərdə saxlamaq lazımdır:

1. Yerli özünü idarəetmə orqanları konstitusiyalı idarəetmə formasında olduqca mühüm məsələlərdən biridir. Yerli özünü idarəetmə qurumları ilə əlaqədar qəbul olunmuş Avropa Xartiyasiyanın müddəalarına əsasən yerli özünü idarəetmə orqanlarının və ya bələdiyyələrin iş prinsipləri ölkənin qanunvericiliyində, hətta daha yaxşı olar ki, Konstitusiya kimi ali qanunlar toplusunda öz əksini tapsın. O zaman bələdiyyələrlə bağlı müəyyən olunmuş prinsiplər kontitusiya prinsipləri kimi

çıxış etməklə yanaşı, ölkənin demokratik sistemlərlə idarə edilməsinin sübutu kimi çıxış edir.

Nəticə etibarilə demək olar ki, Avropa Xartiyası bələdiyyələrin fəaliyyətini demokratik quruluşun vacib şərtlərindən birii sayır. Dövlət idarəetməsinin ayrılmaz hissəsi kimi qəbul edilən yerli özünü idarəetmə orqanları özünü dövlətdən ayrı tutmamalıdır. Ona görə ki, elə ən başdan yerli özünü idarəetmə orqanlarının təsisatı Konstitusiyanın prinsiplərində öz əksini tapır. Bu o deməkdir ki, Konstitusiya kimi mühüm bir normativ sənəddə yerli özünü idarəetmə orqanlarının qanunlara riayət etməsi yazılır. Unutmaq olmaz ki, qanunları yalnız dövlət qəbul edir. Bu o deməkdir ki, yerli özünü idarəetmə orqanları sərhədsiz formada müstəqil ola bilməz, bələdiyyələr yalnız öz imkanları daxilində müstəqildir. Beləliklə, yerli özünü idarəetmə orqanları tam olaraq dövlət idarəetməsi strukturuna daxil deyil, lakin qanunlara mütləq şəkildə tabe olan dövlətin xüsusi bir institutudur. Belə nəticəyə gələ bilərik ki, yerli özünü idaretmə orqanları dövlət tərəfindən mühafizə olunan bir sistemdir. Dövlət təkcə yerli özünüidarəetmənin ümumi prinsiplərini açıqlamaqla kifayətlənmir, həm də onun fəaliyyətinə zamin durur. Ona görə də bələdiyyələrin qərarları məhkəmə yolu ilə müdafiə oluna bilir. Məhkəmə hüququ isə təkcə bələdiyyələrin özünü müdafiəsi üçün nəzərdə tutulmayıb. Yerli əhali də bələdiyyələrin fəaliyyətlərindən, həm də fəaliyyətsizliyindən şikayətçi olub məhkəməyə müraciət edə bilər. Məhkəmə sistemi özü dövlətin hüquqi varlığının əsas elementidir, bu o deməkdir ki, bələdiyyələr də quruluşun bir elementidir. Dövlət orqanlarının bir sıra səlahiyyətlərinin bələdiyyələrə ötürülməsi imkanlarının mövcudluğu da dövlətin əsas tərkib hissələrindən biri olaraq yerli özünü idarəetmə orqanlarının rolunu müəyyən etməyə kömək edir. Tədqiqatçıların bildirdiyinə görə, müxtəlif dünya ölkələrində yerli özünüidarəetmənin təcrübəsi, mərkəzi orqanlarla yerli özünü idarəetmə orqanları arasında qarşılıqlı münasibətlər bu orqanların mərkəzi hökümət statusuna yaxınlaşdığının sübutudur.

2. Yerli özünü idarəetmə sistemi demokratiya idarəçilik formasının təcəssümüdür, xalq hakimiyyətinin bir formasıdır. Aydındır ki, demokratik ölkənin əsas vəzifəsi öz vətəndaşlarının hüquq və azadlıqlarını müdafiə etməsinə şərait

yaratmaqdır. Demokratik idarə edilən ölkə mahiyyət etibarilə 2 tərəfin, yəni həm dövlətin, həm də əhalinin mənafelərini müdafiə etməlidir. Əhali qərarların məzmununa təsir edə bilər və bu qərarlar dövlətin maraqları ilə üst-üstə düşməlidir. Əhali tərəfindən seçilən bu orqanlar onların maraqlarını birbaşa və ya dolayı üsullarla müdafiə etməli, cəmiyyətin idarə olunmasını layiqli şəkildə həyata keçirməlidir.

Yerli sakinlərin birbaşa olaraq idarəetmədə iştirak etməsini təmin edən yerli özünüidarəetmə orqanlarının fəaliyyəti olmadan demokratik bir hakimiyyətin mövcudluğu şübhə altında qalır. Bələdiyyələr müstəqil bir xalqn siyasi gücüdür. Ən səmərəli formada bələdiyyələr insanların qərar qəbul etmədə iştirakına şərait yarada bilər. Yerli özünü idarəetmə orqanları institutunun mövcudluğu müstqil bir idarəetmə sisteminin hakim olduğunun təcəssümüdür.

Hakimiyyətin təşkili sahəsində aparılan bir-birindən fərqli təhqiqatlar getdikcə belə bir düşüncələr yaranır ki, dövlət özündə nə qədər demoratik formada prosedurlar təşkil etsə də, hakimiyyətlə böyük kütləli xalqların iştirakına şərait yarada bilmir. Xalis xalq hakimyyəti dövlətin xüsusi bir quruluşunun qərarlaşması ilə yanaşı həm də vətəndaşların hakimiyyətə yaxınlaşmasına şərait yaradacaq bir çox təsisatların (hansı ki demokratik prinsiplərə əsaslanır) yaratmaq yolu ilə mümkündür. Ona görə də xalq hakimiyyəti ideyasının tam olaraq həyata keçirilməsi əsasən qeyri-dövlət orqanlarının, daha qısa desək, xalqın ən rasional formada özünün təşkil və özünü ifadə forması sayılan yerli özünü idarəetmənin yaradılması ilə əlaqəlidir. Əslində isə yerli özünü idarəetmə sistemi vətəndaşların dövlət idarəçiliyinə cəlb olunmadan da cəmiyyətin idarə olunması kimi bir prosesdə iştirakını müəyyən edir və buna görə də döclətdən sonra ikinci bir xalq hakimiyyəti formasını kimi status qazanır.

Müxtəlif dünya ölkələrinin tarixi təcrübələrinin və həmçinin də qanunvericilik sistemlərinin təhlili yerli özünüidarəetmənin dövlət idarəetmə mexanizminin tərkib hissəsi, struktur bölməsi olmadığını, əksinə onun müstəqil bir səviyyə kimi xalqın özünün hakimiyyətinin reallaşdırılmasının ayrıca bir forması olduğunu deməyə imkan yaradır. Çünki demokratik bir ölkədə xalq özünün hakimiyyətini bilavasitə

(yəni referendum yaxud seçkilər yolu ilə), dövlət hakimiyyəti orqanlarının vasitəsilə və nəhayətində, yerli özünüidarəetmə orqanlarının vasitəsilə həyata keçirir. Buna görə də yerli özünüidarəetmə xalqa məxsus bir hakimiyyətin elə xalq tərəfindən reallaşdırılması formalarından biri kimi çıxış edir.

**Şəkil 1: Bələdiyyənin sahə üzrə formalaşması**




**Mənbə:** Bələdiyyə maliyyəsi və yerli büdcə proses. 2003,s.24

Yerli özünüidarəetmə sistemi qanunvericiliyə əsasən, dövlət hakimiyyət orqanları sisteminə daxil olmasa da, hakimiyyət institutu əlamətlərinə malikdir və bunlar da aşağıda qeyd olunanlardan ibarətdir:

- bələdiyyə ərazisində yerləşən bütün müəssisələr, təşkilatlar, idarə və vətəndaşlar tərəfindən icrası məcburi sayılan hüquqi aktların qəbulu;

- bələdiyyələrin hüquqi aktlarının icrası və yaxud icra olunmamasına görə qanunla müəyyən olunan formada cavabdehliyin olması:

- bələdiyyə orqanlarının özünün aktlarının icrası üçün məcburetmə kimi metodlarından istifadə etmə hüququ.

Bələdiyyə ərazilərdə yaşayan əhalinin say tərkibi isə belədir:

**Cədvəl 2: Bələdiyyələrin təşkili qaydaları**

| | |
|---|---|
| əhalisi 500-1000 olan ərazilərdə | 7 nəfər |
| əhalisi 1000-5000 olan ərazilərdə | 9 nəfər |
| əhalisi 5000-10000 olan ərazilərdə | 11 nəfər |
| əhalisi 10000-20000 olan ərazilərdə | 13 nəfər |
| əhalisi 20000-50000 olan ərazilərdə | 15 nəfər |
| əhalisi 50000-100000 olan ərazilərdə | 17 nəfər |
| əhalisi 100000-300000 olan ərazilərdə | 19 nəfər |

**Mənbə**: Bələdiyyələrə seçkilərin qaydaları haqqında AR Qanunu (I Fəsil, Maddə 5 ) 02 iyul 1999-cu il

Azərbaycan Respublikasında müstəqillik elan olunduqdan sonra bələdiyyələrin yaranması, onların geniş fəaliyyəti, benəlxalq aləmə inteqrasiyasiyası, eləcə də Qərbi Avropa ölkələri ilə münasibətlərin gücləndirilməsi mühüm bir strategiya idi. Azərbaycanın Avropa Şurasına üzvlüyünün qəbul olunması bələdiyyələrin quruluşuna təsir göstərmişdir. 1995-ci ildə qəbul olunan Konstitusiyaya görə, yerli özünü idarəetmə orqanları iki il ərzində bu strategiya ilə sabit formada təşkil edilməli idi. Qeyd edək ki, bələdiyyələrin formalaşmasında Qərb ölkələrinin böyük rolu olmuşdur. "Azərbaycan Respublikasında rayonlarda, şəhərdə, qəsəbələrdə, icra hakimiyyəti orqanlarının yaradılmas və inkişaf etdirilməsi" ilə bağlı qanun layihəsi qəbul olunmuşdur. Azərbaycan Respublikası torpaqlarının aiddiyət subyektləri:

- Dövlət torpaqları - 56,9 %
- Bələdiyə torpaqları - 23,7 %
- Özəl torpaqlar - 19,4 %

Baxmayaraq yuxarıda göstərilən faiz dərəcəsində (23,7 %) torpaqlar bələdiyyələrə aiddir, lakin ölkəmizdə yerli özünüidarəetmə orqanlarının səlaiyyətləri azdır, bu da onların bir çox məsələyə münasibət bildirməməsinə səbəb olur. Əslin müvafiq qanunvericiliyə əsasən torpaqların 33% göstəricisində bələdiyyə mülkiyyətinə verilməli, bələdiyyələrin tabeliyində olmalıdır. Lakin torpaqların

bələdiyyələrin mülkiyyətinə verilməsi məsələsində bir çox problemlər üzə çıxır. Yerli özünü idarəetmə orqanlarına verilən torpaq məhsuldar olmamaması ilə yanaşı, mübahisəli ərazilər hesab olunur. Bəzi torpaqları da icra hakimiyyəti orqanları icarə formasında bələdiyyələrə təklif etmişdir. Nəticədə bələdiyyələrin torpaqdan səmərəli istifadə etməsi qeyri-mümkün olur.

Qeyd edək ki, bələdiyyələrin torpaqları Azərbaycan Respublikasının vətəndaşlarına (fiziki və ya hüquqi şəxslər ) müəyyən bir dövr üçün və ya həmişəlik verilə bilər. Qanunla müəyyən olunur ki, bələdiyyələr torpqalarını özgəninkiləşdirə, özəlləşdirə və ya icarəyə vermək hüququna malik olan bir qurumdur. Təbiidir ki, torpaqlardan təyinatı üzrə istifadə etmək şərtdir. Bu məsələyə də bələdiyyələr nəzarət edir. Belə ki, bələdiyyələr yerli sakinlərin maraqlarını qorumaq üçün öz mülkiyyətindəki torpaqdan istifadə şərtlərini təyin edə bilərlər. Bələdiyyə mülkiyyətinin özəlləşdirilməsindən əldə olunan gəlirlər bir başa bələdiyyə büdcəsinə daxil olunmalıdır. Əksər bələdiyələr yalnız torpaqlara sahibdir, başqa bir mülkiyyət obyektləri mövcud deyil. Digər dövlət qurumlarının yerli özünü idarəetmə orqanlarının büdcəsinə müdaxilə etməsi qanunsuzdur, qəti şəkildə icazə verilmir. Bələdiyyə rəhbərliyi özü iqtisadi situasiyaya uyğun olaraq özü büdcəsini müzakirə edib təsdiq etmə, nəzarət etmə və istifadə etmə hüququna malikdir.

Bakı kənarında qalan ərazi strukturlarında bələdiyyələrin daha müasir xidmətləri fəaliyyət göstərir, çünki ordakı problemlərin həlli üçün yeni layihə proqramları və qanunvericilik aktları işlənir hazırlanır. Tam formada müasir bələdiyyəçilik fəaliyyətinin Azərbaycan Respublikasında bərqərar olması üçün Bakı Şəhər Bələdiyyəsinin yaradılması çox mühüm addım olardı, çünki bu zaman daha səmərəli xidmətləri icra etmək mümkün olardı.

Azərbaycan Respublikasının bələdiyyələrinin hüquqi-təşkilati sistemini bələdiyyə işçilərinin özünü qiymətləndirməzdən öncə onlarla təqribi eyni vəziyyətdə fəaliyyətə başlamış, lakin daha çox nailiyyətlər qazanan həmkarları haqqında informasiyalı olub-olmadıqlarını tədqiq etməliyik. Əsas nüans belədir ki, digər şərtlər təqribi bərabər olduğu şəraitdə xüsusilə düzgün təşkilatlanma gələcək rasional fəaliyyətin əsasını qoyur. Əvvəllər aparılmış tədqiqatlar və diskussiyalar

göstərir ki, doğru struktur-funksional quruluşla və təşkilati qaydalarla fəaliyyət göstərən bələdiyyələr daha çox nailiyyət qazanır və tərəqqi üçün lazım olan resurs və münasibəti qazanırlar.

Əlbəttə, bələdiyyələr dövlətin idarəetmə sistemi çərçivəsində kifayət qədər münbit şəraitdə özünün fəaliyyətlərini qurmalı və inkişaf etdirməlidir. Lakin müşahidələr göstərir ki, bəzi hallarda qanun boşluğundan sui-istifadə halları da istisna deyil. Belə halların yaranması tam olan amilə realdır. Misal üçün təkcə maliyyə sahəsini götürsək, aydın olar ki, dövlət təkcə özünün bələdiyyələrə verdiyi ayırmaları hərtərəfli nəzarətdə saxlayır, digər pul-maliyyə vəsaitlərinə isə tam olaraq nəzarət edilmir. Bu səbəbdən burada müəyyən əyrintilərin baş vermə ehtimalı xeyli artmış olur. Digər tərəfdən bələdiyyələr də, necə deyərlər, aydın, dəyişməz və bərabər hüquqlu qaydalar çərçivəsində "oyuna girməyi" daha üstün tutardılar. Bələdiyyələrin gördüyü işlərin obyektiv surətdə qiymətləndirilməsi əsas problemlərdən biri olaraq qalır. Müəyyən bir qiymətləndirmə forması yaratmaq lazımdır. Bu qiymətləndirmə sistemi həm bələdiyyələrin fəaliyyətinə nəzarət edən strukturları, həm də bələdiyyələrin özünü razı salmalıdır ki, daha sonra hər hansı bir anlaşılmazlıq yaşanmasın.

Bu tip bir sistemi maraq fərqləri çərçivəsində qurmaq olduqca çətindir, ancaq onun əsasını konsensus ideyası təşkil edə bilər, lakin bu şərtlə ki, digər tərəflər (əhali, dövlət, sərmayədarlar, özəl sahibkarlıq, tərəfdaşlar və s.) bələdiyyələrin (üzvlük və struktur qurumları) maraq və fikirlərini nəzərə almış olmalıdır. Həyata keçirilmiş sorğu ilə birinci dəfə belə bir fürsət yaranmışdır. Bu, ilk cəhd olduğundan səslənmiş cavablar əsasən səmərəli qiymətləndirmə əsasında verilmiş təkliflər kimi deyil, daha çox intutitiv seçim kimi dəyərləndirilməsi daha düzgün olar.

Bələdiyyələrin müvəffəqiyətlə fəaliyyət göstərməsində bələdiyyə sədrləri və digər aparıcı işçilər liderliyin böyük əhəmiyyətini vurğulayırlar. Bununla da yanaşı, aydındır ki, bələdiyyələr özünün sıralarından sədrin namizədliyini irəli sürüb dəstəkləyəndə, bu bir tərəfdən, təzyiqlərə səbəb olur, digər tərəfdən daha sonra özünü doğrultmasa, münaqişələrə gətirib çıxarır.

Sözsüz ki, bələdiyyələrlə yerli icra hakimiyyəti orqanları çox intensiv qarşılıqlı təsir mövcuddur. Bunun əsas səbəbi odan ibarətdir ki, ilk bəldiyyə heyətlərinin rastlaşdığı başlıca problemlər məhz icra orqanları ilə səlahiyyətlərin və mülkiyyətin bölünməsi zəmnində mydana gəlmişdir. Məlumdur ki, yerli icra hakimiyyəti orqanlarının üstün tutduğu müqavimət tipli siyasəti (ən optimal variantda seyrçi mövqeyi) obyektiv maraqlardan irəli gəlmişdir və daha geniş mənada mövcud icra hakimiyyətinin ərazi-inzibati idarəetmə sisteminin özünün islah edilməsinin obyektiv zərurəti ilə səsləşir. Bu gün ölkənin və dövlətin inkişafının daxili və xarici imperativləri bu misal üçün israrla siyasi gündəliyə daxil edilməsini tələb edir. Bu baxımdan bələdiyyə və icra hakimiyyəti orqanlarının mövcud münasibətləri tədqiqatı əsas təhsil mövzularından biri olmuşdur

Bələdiyyə işinin əsas olaraq 2 forması mövcuddur:

- İclaslar;

- Komissiyalar.

Yerli özünü idarəetmə orqanlarının iclasları bir ay ərzində 1 dəfədən az olmamaq şərti ilə bələdiyyənin sədrinin başçılığı ilə yığıncaq formasında keçirilir və sədrin istəyi ilə bağlı olaraq çağırılır.

Yerli özünü idarəetmə orqanlarının komissiyaları daimi və digər komissiyalar şəklində fəaliyyət göstərir. Komissiyalar bir sıra prinsiplərlə əlaqəli olaraq fəaliyyət göstərir: fikir ayrılığı, aydınlıq və yaxud aşkarlıq, ümumi rəyi də diqqətə almaqla komissiyanın üzvlərinin təşəbbüsü, qoyulan problemlərin müstəqil diskussiyası və b.

Bələdiyyə fəaliyyətlərini yerinə yetirmək qanunvericiliyə görə Azərbaycan Respublikasının hüququdur. Lokal xarekter daşıyan sosial və iqtisadi, ekoloji proqramları icra edərkən dövlət qurumları öz səlahiyyətlərini həmin ərazini daha yaxşı tanıyan, yerli sakinlərə yaxın olan yerli özünüidarəetmə orqanlarına həvalə olunması elə bələdiyyə hüquqlarında göstərilmişdir. Azərbaycan Respublikasının bələdiyyələrlə bağlı qanunvericiliyi dövlətin bələdiyyələrin himayə olunmasını, bələdiyyələrin öz mövcudiyyətini saxlaması üçün lazımi hüquqi, maliyyə, siyasi dəstəyi göstərəcəyini təsdiq edir. Yerli özünü idarəçiliyin effektiv həyata keçirilməsi

sahəsində həm beynəlxalq, eləcə də yerli praktika göstərir ki, bir sıra müxtəlif cür yerli proqram layihələrinin effektiv həyata keçirilməsində bələdiyyələrə müvafiq vəzifə və səlahiyyətlərin həvalə olunması, çox vaxt səmərəli nəticə verməklə özünü doğruldur.

## 2.2. Bələdiyyələrin mövcud maliyyə-iqtisadi vəziyyətinin təhlili

Yerli özünüidarəetmə orqanlarının yaranması Azərbaycanın dövlət kimi formalaşmasında böyük bir addım olmuşdur. Bələdiyyələr yalnız yerli özünüidarəetmə məsələlərini deyil, həm də inzibati-ərazi vahidlərinin, qəsəbələrin, kəndlərin inkişafının təmin edilməsində mühüm rol oynamalıdır. Ümumilikdə bələdiyyə institutlarının əsası qoyularkən yerli məsələlərin həll olunması, insanların həyat səviyyəsinin yaxşılaşdırılması kimi səlahiyyətlər onlara təhvil verilmişdi.

Bələdiyyə büdcələrinə dövlət tərəfindən verilmiş dotasiyalar da daxil olur. Əgər bələdiyyələr bu dotasiyalardan asılı vəziyyə gəlirsə, bu heçdə yaxşı hal sayılmır. Ona görə ki, digər mənbələrdən bələdiyyə büdcələrinə heç bir maliyyə vəsaiti daxil olmasa, nəticədə onlar maliyyə krizi yaşaya bilərlər. Bələdiyyələr üçün stabil gəlirlərin büdcəyə daxil olması olduqca əhəmiyyətlidir. Azərbaycan Respublikasında bələdiyyələrə verilən yardımlar da özlərinin gəliri kimi aşağı səviyyədədir. Bələdiyyə büdcələrinin gəlir-xərc istiqamətlərinin analizi, təhlili onu göstərir ki, bələdiyyyələr iqtisadi cəhətdən olduqca zəifdir, səlahiyyətlərini lazımınca yerinə yetirə bilmələri üçün kifayət qədər maliyyə vəsaiti yoxdur. Müasir dövrdə bələdiyyələrin insanların həyatının yaxşılaşdırılmasının aktiv formada iştirak edə bilməmələrinin səbəbi məhz budur. Maliyyə vəsaitləri ilə yerinə yetirməli olduqları səlahiyyətləri arasında kəskin disporsiya var və ona görə də öz işlərini qanunvericilikdə nəzərdə tutulan qədər səmərəli görə bilmirlər. Lakin büdcə gəlirlərinin az olması, o demək deyil ki, bələdiyyələr öz vəzifələrini icra etməməlidirlər. Bu problemlərin əsas həll yolu odur ki, əvvəlcə hər bir bələdiyyə görməli olduğu sosial və ictimai xidmətlərin xərclərini müəyyən etməlidir. Lakin hazırda dövlət büdcəsi, eləcə də bələdiyyə büdcələri hazırlanarkən əvvəla gəlirlər

hesablanır, daha sonra həmin gəlirlərə müvafiq xərclər uyğunlaşdırılır. Bu prinsip daima bələdiyyələri maliyyə qıtlığı ilə üz-üz qoyur. Başlıca olar prioritetlər müəyyənləşdirilməlidir, yəni hər bir bələdiyyə öncəliklə hansı işlərin onlar üçün həyati əhəmiyyət daşıdığını düşünməlidir.

Bələdiyyələrin icra aparatının qərarları nəticəsində bələdiyyə öz vəsaitlərində istifadə edir. Büdcə maliyyəsinin idarə edilməsinin əsas 2 aspekti vardır: hüquq və maliyyə tərəfi. Hər iki aspektin vəhdəti olaraq qeyd edə bilərik ki, istər dövlət, istərsə də bələdiyyə maliyyəsi dəqiq, düzgün, vahid və ədalətli formada təşkil edilməlidir.

Maliyyə sistemi yalnız kompleks və ya ümumi xarakter daşıyan problemlərə deyil, xüsusi təyinatlı məsələləri də öz nəzədində saxlamalıdır. Maliyyə idarəetməsi və ya başqa sözlə desək, maliyyə menecmenti mütləq xüsusilik göstəricisinə diqqət yetirməlidir.

Bələdiyyə maliyyə sisteminin xüsusilik prinsipinin əhəmiyyəti nədən irəli gəlir? Çünki bələdiyyələrin maliyyə sisteminin konseptual olaraq nəzəri aspektləri vardır, lakin xüsusi hallar yaranır ki, onların həll yollarının araşdırılması bu prinsipinin önəmini artırır.

Yerli özünüidarəetmə orqanlarının büdcələri hər il müvafiq olaraq təsdiqlənir, icra olunur, öncədən təyin olunmuş vaxtlarda vergilər yığılır, sakinlərin həm sosial, həm də ictimai xidmətlərə olan tələbatı ödənilir.

Bələdiyyə büdcələrinə öncədən nəzərdə tutulan səviyyədən az gəlir daxil olması ictimai sferada bir sıra problemlərin yaranmasına səbəb ola bilər. Ona görə yerli büdcələrin dəqiqliyi çox zəruridir.

Maliyyə menecmentinin aşkarlıq prinsipi mütləq şəkildə vurğulanmalıdır. Yerli özünüidarəetmə orqanları hazırlanmış layihələrlə bağlı insanları məlumatlandırmalıdır.

Bələdiyyə idarəetməsi birbaşa olaraq dövlət strukturlarının idarəetməsi çərçivəsində deyil. Yerli özünüidarəetmə orqanlarının əsas öhdəliyi öz daxili və inzibati sistemlərini elə qursunlar ki, qanunvericiliyə zidd olmayan fəaliyyətlərlə məşğul olaraq, rasional formada öz səlahiyyətlərindən istifadə edib əhalinin yerli

tələbatlarını ödəməyi bacarsınlar. Bələdiyyələrin vəzifəli şəxsləri ilə qarşılıqlı münasibətlərdə bu nüanslar əsasında qurulur.

Bələdiyyələr qanunvericilikdə təsbit olunmuş səlahiyyətləri özündə cəmləşdirərək mərkəzi hökümət orqanlarının qərarlarını icra etməklə leqal şəkildə dövlətin öz siyasətini həyat keçirməsinə köməklik gsötərdiyi üçün avtomatik olaraq dövlət orqanları ilə qarşılıqlı münasibətdə olurlar.

Yerli özünü idarəetmə orqanlarının büdcəsi onların səlahiyyətlərinə müvafiq şəkildə olmalıdır. Qeyd olunan uyğunluq prinsipi Azərbaycan Respublikasının Konstitusiyasında mövcuddur. Bələdiyyə idarəetməsinin azadlığı, səmərli fəaliyyəti bu prinsip olmasa, təsdiqlənmir. Çünki bu zaman qanunvericilik yerli özünüidarəetmə orqanlarının maliyyə və iqtisadi sərbəstliyinə zamin durur, eyni zamanda bələdiyyə mülkiyyətinin də dövlət tərəfindən təsdiq olunduğunu isbat edir. Bələdiyyələrin təsərrüfat fəaliyyətini səmərəli şəkildə yürütməsi olduqca mühüm məsələdir. Maliyyə vəsaiti ilə yanaşı lazım olan digər resursların təmin olunmadığı təqdirdə təsərrüfat fəaliyyətinin optimal variantda aparılması mümkün olmur.

Qeyd etdiyimiz kimi, bələdiyyə büdcələri müstəqil hesab olunur və öz siyasətlərini bələdiyyədə aparılan müzakirələr əsasında təyin edirlər. Lakin belə nəticəyə gəlmək olmaz ki, büdcənin gəlir-xərc istiqamətləri dövlətdən bağımsız formada müəyyənləşdirilir. Əlbəttə bələdiyyə büdcələrinin dövlət orqanları ilə əlaqəsi və sıx konsultativ tərəfdaşlıqları vardır.

Bələdiyyələrin əsas vəzifəsi yerli sakinlərinə xidmət göstərməkdir və bu vəzifə maliyyə vəziyyəti ilə bağlıdır. Bələdiyyələrin hərəkətə gətirən başlıca qüvvəsi onun büdcəsidir, bu qüvvə zəif olsa, əhalinin bələdiyyələrdən şikayətləri artmağa başlayır, çünki vəzifələrini dolğun formada yerinə yetirə bilmirlər. Bələdiyyələrin fəaliyyəti qurulanda maliyyə əsasları öncədən müəyyən edilməlidir.

Yerli özünüidarəetmə orqanlarının vacib əsasları aşağıdakılardır:

- bələdiyyə qurumlarının əmlakı;
- bələdiyyə qurumlarının torpaqları;
- bələdiyyələrin büdcə və büdcədənknar fondları;
- bələdiyyə qurumlarının istehsal, xidmət fəaliyyəti və s.

Maliyyə menecmentinə dair yeni yanaşmaları göz önündə tutsaq, bələdiyyə maliyyəsinin əsas mahiyyətini bu formada ifadə edə bilərik: "Bələdiyyə maliyyəsi - bələdiyyələrin sahəsində ictimai xidmətlər istehsalını, digər idarəetmə funksiyalarının reallaşdırılmasına görə lazım olan maliyyə resurslarının formalaşması və ondan istifadəsi prosedurunun səmərəli şəkildə idarə olunmasıdır".

Maliyyə sistemini digər bir sözlə ifadə etsək, deyə bilərik ki,dövlət və bələdiyyə büdcələrinin idarə edilməsi, ictimai maliyyə fondlarının yığılması və onların düzgün istifadəsi üçün ehtiyac olan institutların cəmidir.

"Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Qanuna görə:

1. Bələdiyyələr maliyyə məsələlərinin idarə olunmasını həm təyin olunduqları ərazidə, həm də bu ərazilərin sərhədlərinin kənarında fəaliyyət göstərən Azərbaycan Respublikasının rezidenti - kredit təşkilatları ilə qarşılıqlı əlaqə formasında yerinə yetirə bilərlər.

2. Bələdiyyələr kredit və sığorta təşkilatları ilə münasiətlərdə müqavilə bağlamalıdır;

3. Bələdiyyələrin qanunların izin verdiyi qayda ilə:

3.1. Kassa və hesablaşma əməliyyatları üçün müvəkkil bankı seçə və xəzinədarlıq yarada bilər;

3.2. Azərbaycan Respublikasında fəaliyyət göstərən (yalnız rezident) olan banklardan qısa və uzun müddətli kreditlər ala bilər;

3.3. Bələdiyyələr öz mülkiyyətində olan obyektləri və bələdiyyə qulluqçularını sığorta edə bilər;

4. Dövlət bələdiyyələrin kredit təşkilatı ilə bağlı öhdəliklərinə görə məsuliyyət daşımır.

### 2.3. Bələdiyyə menecmentinin inkişafının müasir vəziyyəti və səmərəliliyinin qiymətləndirilməsi

Azərbaycan Respublikasında fəaliyyətdə olan bələdiyyələrin işinin səmərəliliyi yerli özünü idarəetmə orqanlarının maliyyə bazasının gücləndirilməsi ilə bağlıdır.

Kommunal xidmətləri, sanitar, ticarət xidmətləri yerli sakinlərin problemlərinin həll edilməsi üçün bələdiyyələrin səlahiyyətlərinə daxil edilir.

1790-cı ildə fransız xadimi Ture ilk dəfə özünüidarəetmə prinsipini əsaslandırmışdır. Ture özünü idarələr sferasında aşağıdakı 2 əsas konsepsiyanı formalaşdırdı:

1) bəzi xüsusiyyətlərinə yerli özünüidarəetməyə bənzədilən icma işləri konsepsiyası;

2) yerli səviyyədə həll olunması üçün həvalə edilmiş dövlət işləri konsepsiyası

Daha sonra bu konsepsiyalar özünüidarəetmə sahəsində müxtəlif nəzəriyyələrin yaranmasında önəmli yer tutmuşdur.

Nümunə olaraq müstəqil icmalar haqqında nəzəriyyənin əsasını A.de.Tokvil qoymuşdur. O, özünü idarə edən icmalar haqqında konseptual yanaşma irəli sürmüşdür. Bu konsepsiyanın əsas ideyaları aşağıdakılardır:

- Hakimiyyətin mənbəyi dövlətin rəhbərliyi tərəfindən seçilmiş nümayəndələr deyil, hakimiyyətin mənbəyi könüllü formada vahid icmalarda birləşmiş, özü-özünü idarə edən ayrı-ayrı insanlardır.

- Dövlətin mərkəzi idarəetməsi mühafizə edici institut kimi fəaliyyət göstərməli, yardımçı qüvvə olaraq qalmalıdır.

İcmalar dövlətlərdən əvvəl yaranmışdır, ona görə də öz təbiətinə görə sərbəst olmalıdır. Onlar öz işlərini sərbəst surətdə görməlidir. Ona görə yerli özünüidarəetmə məfhumuna aşağıdakılar daxil edilmişdir:

- Öz xarakteristikalarına görə dövlətin işlərindən olduqca fərqlənən icmaların işlərinin ayrılıqda idarə edilməsi;

- təkcə icma üzvlərinin seçə biləcəyi yerli özünüidarəetmə orqanları;

- icmaların öz səlahiyyətləri daxilində olan fəaliyyətlərinə dövlətin qarışmaması.

Belə nəticəyə gələ bilərik ki, icma ilə bağlı olan nəzəriyyələrin əsasında icma maraqları həmişə dövlət maraqlarına qarşı qoyulur. 1831-ci ildə Belçika Konstitusiyasında bu nəzəriyyə öz əksini tapmışdır. Yerli özünüidarəetmə orqanlarının fəaliyyətini hakiminiyyətin dördüncü halqası kimi tanıdı, bir maddni

yerli özünüidarəetmə orqanlarının fəaliyyətinə həsr etdi. "İcma dövlətdən böyükdür, qanun onlara aid edilə bilər, amma yarada bilməz" şüarı ilə bu maddə Konstitusiyaya daxil edilmişdir. Lakin nəzəriyyənin sonrakı dövrlərdə bir sıra mənfi xüsusiyyətləri özünü büruzə verdi və nəticədə tətbiq olunmasına icazə verilmədi.

Belçikalılar tərəfindən hazırlanan yerli özünüidarəedərələrin ictimai nəzəriyyəsi inkişaf etdirilməyə başlanıldı.Yerli özünüidarəedənlərin ictimai nəzəriyyəsi elə öncəki nəzəriyyə kimi yerli idarəetmə qurumlarının məsələlərini özləri həll etməsini nəzərdə tuturdu. Bu nəzəriyyə ilk olaraq yerli əhalinin özgəninkiəşdirilmiş və ənənəvi xarakter daşıyan hüququnun əvəzində yerli özünü idarələrin təsərrüfat hüququnu ön plan çıxarırdı. Nəzəriyyənin tərəfində duran şəxslər dövlətin deyil, yerli özünüidarə orqanlarının işlərinin vahid bir siyasını yaratmaq istəyirdilər. Amma onların fərqləndirici xüsusiyyətlərini aşkarlaya bilmədilər. Lokal xarakterli vergilər, asayişin qorunması, yolların salınmas mədəniyyətin səmərəli idarəsi və b. tam olaraq ictimai işlər sayılmırdı və onları dövlət işlərinin qarşı mövqeyində qoymaq mümkün olmadı. Adı çəkilən nəzəriyyənin bu istiqamətdəki zəifliyi tərəfdaşları yerli özünü idarə orqanlarına başqa prinsiplərdən baxmağa məcbur etdi.

Özünüidarələrin dövlət nəzəriyyəsi inkişaf etməyə başladı və bu nəzəriyyə ictimai nəzəriyyəyə tənqidi olaraq yanaşırdı. Bu nəzəriyyəyə əsasən yerli özünüidarələr özü dövlət idarəetməsinin bir formasıdır, dövlətin mərkəzi idarəetməsindən asılıdır. Bir fərq odur ki, idarəetmə məmurlar vasitəsilə deyil, yerli özünüidarəetmənin qərarlarında maraqları böyük olan yerli əhali vasitəsilə həyata keçirilir. Əslində dövlətin bəzi funksiyalarını yerli özünüidarəemə orqanlarına həvalə etməsi böyük maraq doğurmuşdu, lakin o zamanlar Keynsin ideyaları daha çox danışıldığından bu yenilik daha geridə qaldı. Çünki Keynsin bazarın dövlət tərəfindən aktiv tənzimlənməsini irəli sürüdü ki, bu da yerli özünüidarəetmənin nəzəriyyələri ilə üst-üstə düşmürdü.

Bütün bu məqamları göz önündə tutaraq bələdiyyələrin fəaliyyətinin genişləndirilməsi üçün müxtəlif istiqamətlərin sintezi edilirdi. Nəticədə dualist nəzəriyyənin yaranmasının başlanğıcı qoyuldu. Nəzəriyyənin iki tərəfi var idi. Bir

qolu dövlət, digər qolu isə icma, yəni özünüidarəetmə orqanlar dövlətin idarəetmə sisteminin ərazilərdə yardımçısı kimi fəaliyyət göstərəcək, dövlətin səlahiyyətlərinin legitim istifadəçisinə çevriləcəkdir. Bu nəzəriyyə dövlət və icma nəzəriyyələrinin ortaq bir kontekstə salmaq kimi məqsədi güdürdü ki, bu da bələdiyyələrin fəaliyyət göstərməsinə müsbət təsir etməsi məqsədi güdürdü.

Dualist nəzəriyyə konsepsiyası yerli özünüidarəetmənin daha ətraflı şəkildə izah edir. Özündə 2 formada təşəbbüskarlığı ifadə edir:

- yerli əhali tərəfindən yerli özünüidarələrin fəaliyyətinə göstərilən təşəbbüskarlıq;

- dövlət tərəfindən yeni yaradılan bələdiyyələrə ümumi maraqlar kəsb edən funksiyaların həvalə edilməsi təşəbbüskarlığı.

Bu o deməkdir ki, dövlət həm əhalinin maraqlarını təmin edə bilir, həm də ictimai işlərin müstəqil yerinə yetirilməsinə şərait yaradır. Təbiidir ki, səlahiyyətlər çoxaldıqca onun öz vəzifələrini yerinə gətirməsi olduqca çətinləşir. Dövlət işlərinin aparılması üçün həmişə vəsaitləri çatışmır və dövlət maliyyələşməsinə ehtiyac duyurlar. Buna baxmayaraq, yerli özünüidarəetmə orqanlarının xüsusiyyəti onun təsərrüfat münasibətlərində iştirak etməsini tələb edir. Çünki bu sayədə öz büdcəsini və iqtisadi gücünü qoruyu saxlaya bilər.

Dövlətin tarixi inkişafı elə bələdiyyələrin inkişafı ilə əlaqəlidir. Modern formada bələdiyyələrin mövcudluğu sənayeləşmə cəmiyyətinə keçid ərəfəsində olmuşdur. Həmin dövrdə yerli özünüidarəetmə orqanları yalnız məhkəmə nəzarəti ilə dövlətdən asılı sayılırdı, mərkəzi hakimiyyətə tabe olmayan hakimiyyət idi (dördüncü hakimiyyət). Daha sonra ölkə rəhbərliyi inkişaf etdikcə dövlət idarəetməsi sferasında mərkəzləşdirmə və yerli özünüidarələrin hüquqi cəhətdən tənzimlənməsi, dövlətin sosial funksiyalarının artması səlahiyyətlərin bir-birilə kəsişməsinə səbəb olmuşdur. Yerli özünüidarəetmə orqanları və dövlətin münasibətləri kəskinləşmişdir. Buna görə də bələdiyyələrin fəaliyyətinə yenidən baxılmağa başlanıldı,bələdiyyələr ümumi siyasətin həyata keçirilməsi çərçivəsində dövlətin icra fəaliyyətini yerinə yetirən özünəməxsus növü olaraq səciyyələndirildi. İnsanların sosial rifahını ön planda olan dünya ölkələrində (welfare state)

vətəndaşlara göstərilən xidmətlərin artırılması, yüksək səviyyədə həyata keçirilməsi yerli özünüidarəetmə orqanlarına iki formada öz təsirini göstərmişdir:

- bir aspektdən baxsaq, yerlərdə dövlət siyasətinin düzgün formada realizə olunması, yerli sakinlərə xidmətlərin göstərilməsində bələdiyyələrin önəminin artması müşahidə olunmuşdur;

- digər aspektdən baxsaq, əslində bələdiyyə idarəetməsi getdikcə dövlət idarəetməsi ilə birləşməyə başladı və bu proses onun müstəqilliyinin azalmasına təkan verdi.

Nəticədə bələdiyyələr öz xüsusiyyətlərini formalaşdırıb gücləndirmiş, bələdiyyələrin bir institut kimi dövlət maraqları ilə birləşmiş, dövlət maliyyə sistemindən asılı vəziyyətdə qalmışdır. Bu asılılıq illər ərzində yerli özünüidarəetmə orqanlarının tədricən idarə eləmentlerini geri plana atması ilə nəticələnmişdir.

XX əsrin ikinci yarısında vəziyyətin belə ciddi dəyişməsi dünya ölklərini narahat etməyə başladı. Onlar yerli özünüidarəetmə orqanlarının hakimiyyətə geri dönməsi üçün müəyyən üsullar axtarmağa başladı. Öncəlik Avropa Xartiyası qəbul edildi, hansı ki bələdiyyə idarəetməsi ilə bağlı idi. İndiki vaxtda Avropa Xartiyası Avropa ölkələrinin bələdiyyələrinin idarə edilməsində əsas normativ sənəd hesab olunur. Adı çəkilən sənəd Avropa Şurasına üzv olan ölkələrdən yerli sakinlərin siyasi, iqtisadi, inzibati azadlığını müdafiə etmək üçün dövlətlərin üzərinə bələdiyyələrin fəaliyyəti ilə bağlı bir sıra öhdəliklər qoyur. Yerli özünüidarəetmə orqanları bir növ öz qanuniliyini isbat edir və qanunlara riayət olunması demokratik ölkələrdə tələb olunur.

Ölkəmizdə özünüidarəetmə orqanlarına bənzəyən qurumların yaradılmasının əsasları XIX əsrin sonlarından başlayıb. 1870-ci ildə qəbul olunan "Şəhər əsasnaməsi" nə görə 1878-ci ildə yerliözünü idarəetmə orqanlarının yaradılmasına izin verildi. Şəhər Duması yerli özünüidarəetmə orqanı kimi fəaliyyətə başladı. Şəhər Bələdiyyəsi İdarəsi Bələdiyyə Sədrindən və 6 üzvdən ibarət idi. Düzdür bu orqan seçkilər əsasında təyin olunurdu, amma əmək senzi tətbiq edilirdi. Şəhərin cəmi 4,3 %-i seçkilərdə iştirak edə bilərdi.

Bu bələdiyyə abadlıq aparılması işləri, əhalinin yanğından müdafiəsi, təhsil, ticarət obyektlərinin təşkil olunması kimi məsələlərə diqqət yetirirdi. Könüllü və məcburi olmaqla yerli özünüidarəetmə orqanının işləri 2 kateqoriyaya bölünür. Abadlı işləri ilə bağlı fəaliyyətlər könüllü, dövlət idarələrinin, hərbi qüvvələrin maliyyə ilə təmin edilməsi isə məcburi xarakter daşıyırdı. Bələdiyyənin vəzifəli adamları Qubernatorun təsdiqi ilə seçilirdi, öz mülkiyyətini idarə edir, büdcəsini tənzimləyirdi. Daxili İşlər Nazirliyi və Qubernator isə ali hüquqa malik idi və bələdiyyədə verilən qərarları ləğv edə bilərdilər.

1892-ci ildə yeni "Şəhər Əsasnaməsi" qəbul olundu. Bələdiyyənin vəziyyəti daha da yaxşılaşmaq əvəzinə, əksinə pisləşirdi. Çünki Qubernatorun səlahiyyətləri daha çox artırılmışdı, əhalinin isə 1%-indən azı səsvermədə iştirak edə bilirdilər. 1897-ci ildə Gəncə Duması da yaradıldı. Bakı üçün 72, Gəncə şəhəri üçün 54 deputat seçilirdi. Sonralar Şamaxı, Şəki, Şuşa, Ordubad, Naxçıvan və Quba şəhərlərində də məhdudiyyətli şəkildə bələdiyyələr ( şəhər idarələri) təsisatı yaradıldı.

SSRİ-də qəbul olunmuş "demokratizm"ə əsasən idarəetmə sərt mərkəzləşməyə əsaslanırdı, bu da bələdiyyələrin kasad fəaliyyətinə gətitib çıxarırdı. Bələdiyyə icra komitələri təkcə Sovet İttifaqına tabe deyildi, həm də yuxarıların icra komitələri və daxili partiyalarına tabe idi. Yuxarı quruluşların komitələrində qəbul edilən qərarlar bələdiyyələr üçün də keçərli idi. Aşağı dövlət orqanlarının qərarları "yuxarılar"a xoş gəlməzsə, ləğv edə bilərdi. Əslində partiyalar idarəetmədə iştirak edirdi. Sonuncu dəfə 1990-cı ildə sovetlər üçün seçkilər olmuşdur. 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyasının qəbul olunması ilə bu orqanlar sıradan çıxarılmışdır.

Azərbaycan Respublikası 1991-ci il 18 oktyabr tarixində "Azərbaycan Respublikasının Dövlət müstəqilliyi" haqqında Konstitusiya aktı ilə öz müstəqilliyini elan etdi. Ən başlıca amal demokratiklik prinsipindən çıxış edərək iqtisadi və sosial cəhətdən güclü bir dövlət yaratmaq idi. Aparılan davamlı islahatlar demokratik dövlətin möhkəmlənməsi üçün zəruri addımlardan idi, bu addımlardan ən önəmlisi yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin təmin olunması idi.

Yerli özünüidarəetmə orqanlarına bənzər institutlar fəaliyyət göstərirdi. Lakin Ulu öndər, sabiq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bilirdi ki, bələdiyyə idarələrinin mövcudluğu qanunda əks olunmalı, ölkənin demokratik dəyərlərinin bir parçasına çevrilməlidir. Ona görə də 12 noyabr 1995-ci ildə qəbul edilmiş Konstitusiyamızda bələdiyyələrin fəaliyyəti öz əksini tapmışdır. Yerli demokratiyanın inkişafı, insan hüquq və azadlıqlarının səlis formada göstərilməsi, xüsusilə özünüidarəetmə orqanlarının fəaliyyəti ilə bağlı müddəalar böyük uğurdur.

Konstitusiyamızda yerli özünüidarəetmə orqanlarının fəaliyyətlərinin təşkili, səlahiyyətləri, məsuliyyətləri, qərarlarının icrası, müstəqilliyinə dair zəmanətlərin verilməsi ilə bağlı maddələr vardır. IX fəsil tamamilə bələdiyyələr fəaliyyətinə həsr olunmuşdur. Konstitusiyada bələdiyyələrin mülkiyyət hüququ təsdiqlənmiş, onların toxunulmaz olduğu, onlara əlavə imkanlar yaradılacağı elan edilmişdir. Onların fəaliyyətinin reallaşdırılması üçün onlara maliyyə vəsaitləri ayrılmalı olduğu qeyd edilmişdir. Onların səlahiyyətlərinin icrasına qanunvericilik və icra orqanları nəzarət edir. "Bələdiyyələrin statusu haqqında, "Bələdiyyələrə seçkilərin qaydaları" haqqında Azərbaycan Respublikasının Qanunları 1999-cu ildə qəbul edilmiş elə həmin ilin 12 dekabr tarixində ilk dəfə bələdiyyələrə seçkilər keçirilmişdir. Sakinlərin iştirakı təmin olunmuş 2667 yeni yerli özünüidarəetmə orqanları təşkil olunmuşdur. Təqribən iyirmi beş min vətəndaş bələdiyyə qulluğuna qəbul edilmişdir.

"Bələdiyyə qulluğu haqqında", "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında", "Bələdiyyələrin əraziləri və torpaqları haqqında", "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Bələdiyyə üzvünün statusu haqqında", "Yerli (bələdiyyə) vergi və ödənişlər haqqında" və s. çoxlu qanunlar qəbul edilmişdir.

Azərbaycan Respublikasında keçirilən islahatlar birbaşa olaraq bələdiyyələrin fəaliyyəti ilə əlaqəlidir. Dövlət və bələdiyyə idarəetməsi sahəsində aparılan bütün islahatlar bu və ya digər şəkildə bələdiyyələrin işinə müsbət təsirini göstərir. Ona görə də ölkəmizdə yerli özünüidarəetmə orqanlarının fəaliyyətini dövlətin fəaliyyətindən kənar düşünmək mümkün deyil.

Müstəqil, unitar, demokratik bir ölkə olaraq bələdiyyələrin fəaliyyəti idarəetmənin səmərəli təşkil olunması və yaranması tarixi bir zərurətdən doğan prosesdir.

Bələdiyyə orqanlarında sosial-iqtisadi inkişaf layihələrini hazırlamaq üçün aşağıdakı mərhələri göz önündə tutmaq lazımdır:

I mərhələ:

- inzibati ərazilərin bazar vəziyyətinin araşdırılması, mövcud situativ problemlərin dəyərləndirilməsi, xammal resurslarının analizi, əsas problemin tapılıb ortaya çıxarılması;

II mərhələ:

- bələdiyyələrin ixtisaslaşmalarının fərqlənməsi, əmək qabiliyyətli əhalinin hesablanması, xarici ticarət əməliyyatlarının miqyasının təyin olunması; bazar seqmentinin ayrı-ayrı bölmələr üzrə təhlili;

III mərhələ:

- innovativ xüsusiyyət daşıyan sahələrin tədqiqi, prioritet istiqamətlərin təyin edilməsi, bələdiyyə işlərinin rəqabət gücünün analizinin aparılması;

IV mərhələ:

- fəaliyyətdə olan sahələrin diversifikasiyası, innovativ istehsalın yaradılması, yeni istehsalların tədqiq olunması, birdən çox nümayəndəliyi olan filialların yaradılması;

V mərhələ:

- proqramların reallaşdırılmasının təsdiq olunması, xərclənəcək maliyyə vəsaiti xərclərinin müəyyənləşdirilməsi, proqramın monitorinqinin aparılması və nəticələrinin qiymətləndirilməsi.

Bələdiyyə işinin gücləndirilməsində aşağıdakı punktlar olduqca vacib əhəmiyyət daşıyır:

- İnzibati ərazi vahidində olan subyektlərlə tanış olmaq, onlarla əməkdaşlıq etmək;

- Ərazilərdə insanları narahat edən problemlərin qaynaq mənbələrini tapmaq, problemlərin həlli üçün səmərəli yollar axtarmaq.

# III FƏSİL. ƏRAZİ İDARƏÇİLİK FORMALARININ TƏKMİLLƏŞDİRİLMƏSİ

## 3.1.Ərazi idarəetməsinin təkmilləşdirilməsi

Hər bir cəmiyyət ehtiyaclarını ödəmək üçün təşkilatlanma ehtiyacı hiss edir. Zaman keçdikcə təkmilləşən texnoloji və sosial yeniliklərlə birlikdə ehtiyacları artan cəmiyyət qarışıq bir hal almışdır. Bunun nəticəsində cəmiyyətin ehtiyaclarını ən yaxşı şəkildə qarşılamaq üçün dövlətin idarəetmə formalarında və quruluşlarında dəyişikliklər meydana gəlmişdir. Ehtiyacların getdikcə artması səbəbi ilə dövlətin göstərməli olduğu xidmətlər də çoxalmış və dövlət bu artan xidmətləri yerinə yetirmək üçün bir təşkilatlanma yoluna getmişdir.

Ərazi idarəetmə formaları göstərilən xidmətlərin özəlliklərinə görə 2 yerə ayrılmışdır:

- Mərkəzləşdirilmiş idarəetmə
- Qeyri-mərkəzləşdirilmiş idarəetmə

Bu təşkilatlanma zamanı hər bir dövlət mərkəzi idarəetmə anlayışına yoxsa qeyri-mərkəzi idarəetməyə üstünlük verəcəyinə cəmiyyətinin quruluşuna, sosial və iqtisadi vəziyyətinə, ideologiyasına, mədəniyyətinə , coğrafi və tarixi vəziyyətinə görə qərar vermişdir. Dövlət idarəetmə formasına qərar verəndə hansı dövlət xidmətlərinin hansı idarəetmə forması tərəfindən həyata keçiriləcəyinə də qərar verəcəkdir. Hansı formanı seçirsə seçsin dövlətin məqsədi üzərinə düşən vəzifələri effektiv formada yerinə yetirməkdir.

Mərkəzləşdirilmiş idarəetmə dövlətin cəmiyyətə göstərəcəyi xidmətlərin dövlət mərkəzindən və ya bir əldən təqdim edilməsidir. Bu idarəetmə formasında bütün inzibati xidmətlər dövlət mərkəzində olan bir neçə səlahiyyətli şəxs tərəfindən planlanır, nizamlanır və həyata keçirilir (Günday M. 1996: s.53).

Mərkəzləşdirilmiş idarəetmənin əsas xüsusiyyətləri aşağıdakılardır (Gözübüyük Ş. 2001: s.42).

- Mərkəzləşdirilmiş idarəetmədə bir hüquqi şəxs vardır. O da dövlət yəni mərkəzi idarəetmədir;

• Mərkəzləşdirilmiş idarəetmə dövlət xidmətlərinin xüsusiyyətlərinə görə bölünərək nazirlik formasında qruplaşdırılır. Ancaq nazirliklər hüquqi şəxs hesab edilmir. Nazirliklər dövlət xidmətlərini dövlət adına və dövlətdən aldığı səlahiyyətə görə yerinə yetirir;

•Dövlət xidmətlərinin yerinə yetirilməsi üçün lazım olan xərc və varsa bu xidmətlərdən əldə edilən gəlir mərkəzdə toplanır;

•Dövlət xidmələri mərkəzdəki şəxslər tərəfindən planlanır, nizamlanır və həyata keçirilir. Bunun nəticəsində meydana gələ biləcək məsuliyyət bu şəxslərə aiddir;

•Mərkəzi idarəetmə xidmətlərin göstərilməsi üçün nazirliklərə ayrılsa da mərkələşdirilmiş idarəetmə bir bütündür. Mərkəzləşdirilmiş idarəetmənin bütün subyektləri bir-birinə iyerarxik bağlıdır.

Mərkəzləşdirilmiş idarəetmənin faydaları bunlardır (Yayla Y. 2009: s.234).

•Qərarlar mərkəzdən verildiyi üçün  dövlətin nüfuzunun siyasi və idarəetmə baxımdan güclü olmasını təmin edir;

•Gəlir və xərclər mərkəzdə toplandığı üçün maliyyə nəzarəti daha rahatdır;

•Dövlət xidmətləri tək əldən idarə edildiyi üçün bölgələr arasında qeyri-bərabərlik varsa mərkəzi idarəetmə bərabərliyi təmin edir;

•Dövlət işçiləri iyearxik olaraq nəzarətdə olduğuna və yoxlanıldıqlarına görə xidmətlər tərəfsiz və rasional bir şəkildə həyata keçirilir.

Mərkəzi idarəetmənin əsas problemləri aşağıdakılardır (Yayla Y. 2009: s.235).

•İcra nümayəndəliklərindəki məsul şəxslər dövlət xidmətlərinin göstərilməsində hər hansısa bir səlahiyyətə malik olmadığından hər bir problem zamanı mərkəzə mürciət etməli olurlar. Bu vəziyyət xidmətlərin mərkəzdə cəmlənməsinə, gecikmələrə və qeyri-məhsuldarlığa səbəb olur. Bürokratiya artır;

•Hər bir bölgənin ehtiyacları arasında fərqliliklər olacağı üçün xidmətlərin yerli ehtiyaclara görə həyata keçirilməsi çətinləşir;

•Xalq özü ilə əlaqəli mövzularda passiv bir vəziyyətdə qaldığından hər şeyi mərkəzdən gözləyir. Bu da demokratik mədəniyyəti zədələyir.

Qeyri-mərkəzləşdirilmiş idarəetmə milli və regional səviyyədən daha kiçik səviyyədə seçilmiş orqanlarla idarə edilən və idarəetmə sahəsi çərçivəsində yerli xalqın ehtiyaclarını qarşılamaqla mükəlləf olan bir idarəetmə formasıdır.

Qeyri-mərkəzləşdirilmiş idarəetmənin faydaları bunlardır (Günday M. 1996: s.56).

- Qeyri-mərkəzləşdirilmiş idarəetmə quruluşları mərkəzdən asılı olmayaraq hərəkət edə bildiklərindən, xalqın xidmət ehtiyaclarını daha rahat bir şəkildə yerinə yetirirlər;
- Bürokratiya azalacağından dövlət xidmətləri daha sürətli, təsirli və məhsuldar bir formada yerinə yetirilir;
- Xalqın iradəsi idarəetməyə təsir edəcəyi üçün demokratik prinsiplərə daha uyğundur.

Qeyri-mərkəzləşdirilmiş idarəetmənin əsas problemləri aşağıdakılardır (Günday, M., 1996: s.57):

- Dövlət xidmətləri ölkənin fərqli yerlərində fərqli cür həyata keçirilə biləcəyindən bölgələr arası bərabərsizlik meydana gələ bilər;
- Qeyri-mərkəzləşdirilmiş idarəetmə quruluşları seçimlə iş başına gəldikləri üçün təkrar seçilmək israfa yol aça bilir;
- Hər bir quruluşun öz büdcəsi olduğundan maliyyə nəzarəti olduqca çətindir.

## 3.2. Qeyri-mərkəzləşdirilmiş ərazi idarəçilik formalarının təkmilləşdirilməsi

Qeyri-mərkəzləşdirmə prosesinin həyata keçirilməsi dövlət idarəetməsinin müasir modellərində aparıcı rol oynayır. Özlüyündə cəmiyyətin müasir inkişafının xüsusiyyətləri dövlət hakimiyyatinin qeyri-mərkəzləşdirilməsinə səbəb olan əsas amillərdən biridir (Qəndilov S.T. və başqaları, 2010).

Qeyri-mərkəzləşdirmə meyllərinin güclənməsinin başlıca səbəbləri bir tərəfdən dövlətin funksiyalarının genişlənməsi, digər tərəfdən isə dünyada baş verən iqtisadi və texniki xarakterli dəyişikliklərlə bağlıdır. Belə dəyişikliklər praktiki

olaraq bütün sahələri, xüsusilə də iqtisadiyyat, sosial xidmat sferalarını əhatə edir. Bu sahələrdə dövlətin öz üzərinə götürdüyü çox saylı yeni funksiyalar yerli hakimiyyət strukturlarının bu xidmətlərin istifadaçilərinə daha yaxın olmasını tələb edir.

XX əsrin ikinci yarısından etibarən dünya ölkələrində geniş vüsət alan qloballaşma prosesinin və elmi texniki inqilab nəticəsində texnologiyaların qarşısı alınmaz yüksəlişi də dövlət obrazına təzədən göz gəzdirilməsinə va bələdiyyə orqanlarının möhkəmlənməsinə səbəb olmuşdur. Son zamanlarda daha çox dövlət "yerlimuxtariyyət" devizi altında islahatlar həyata keçirir, demokratik cəmiyyət quruculuğu yolunda mühüm addımlar atır. Onlar üçün hakimiyyətin üfüqi bölgüsü ilə yanaşı, şaquli bölgüsü də mühüm əhəmiyyət kəsbetməyə başlamışdır. Bu yolla yerli özünüidarəetmənin inkişaf etdirilməsi idarəetmənin demokratikləşdirilməsinə və səmərəliliyinin artırılmasına şərait yaratmaqla hakimiyyəti xalqa yaxınlaşdırdığı üçün qeyri-mərkəzləşdirmə bu gün siyasətçilərin, tədqiqatçıların diqqətini getdikcə daha çox cəlb etməkdədir.

Bütövlükdə qeyri-mərkəzləşdirmə müxtəlif idarəetmə səviyyələrinin rolunun, cavabdehliyinin və səlahiyyətlərinin dəyişməsi və yenidən dərk edilməsi prosesi olub, hakimiyyətin və idarəetmənin səmərəliliyinə nail olma metodlarından biridir. Bir çox tədqiqatçılar məqsədlərindən asılı olaraq, onun siyasi, inzibati, maliyyə qeyri-mərkəzləşdirməsi kimi formalarını fərqləndirirlər. Hesab edilir ki, siyasi (və ya demokratik) qeyri-mərkəzləşdirmənin başlıca məqsədi demokratiyanın genişləndirilməsi və siyasi ədalətliliyə nail olunmasından, inzibati (və ya institutsional) qeyri-mərkəzləşdirmənin məqsədi idarəetmənin və xidmətlərlə təminatın səmərəliliyinin yüksəldilməsindən, maliyyə qeyri-mərkəzləşdirməsinin (və ya maliyyə federalizminin) məqsədi isə gəlirlərin artırılması va xərclər sahəsində rasional qərarların qəbulu yolu ilə maliyyənin səmərəliliyinin yüksəldilməsindən ibarətdir. Bu proses bütövlükdə dövlət idarəçiliyi üçün xarakterik hadisə olub, siyasi sistemin demokratikləşdirilməsi, dövlətin dayanıqlığının artırılması, hakimiyyətin bütün səviyyələrində idarəetmə potensialının təkmilləşdirilməsi və inkişafi, bazarın inkişafına və iqtisadi artıma nail olmaq üçün əlverişli mühitin yaradılmasına imkan

verir, idarəetmədə bürokratikləşdirmənin qarşısını alır, idarəetma qərarlarının qəbulu üçün imkanları genişləndirir (Qəndilov S.T. və başqaları, 2010).

Mərkəzi hakimiyyət formasının qeyri-mərkəzləşdirilməsi və lokal xarakterli hakimiyyət obyektlərinin yaranması, xidmətlərin icra edilməsinin rasionallığı, yoxsulluğun aşağı salınması baxımından mühüm əhəmiyyət kəsb edir.

Qeyri-mərkəzləşdirmə iqtisadi baxımdan hakimiyyət orqanlarının yerli tələbatlara və problemlərə həssaslığının yüksəlməsinə səbəb olur, ümummilli və yerli əhəmiyyətli məsələlərin həlli üçün dövlət resurslarının optimal bölgüsünə, lokal xarakterləri yüksək səviyyədə diqqət yetirməklə səmərəli idaraetmə qərarları tapmaq və ölkədə iqtisadi və sosial sferada optimal effekt verməyə şərait yaradır. Ictimai xidmətlərin göstərilməsi və infrastrukturun təmin olunmasına görə cavabdehlik qeyri-mərkəzləşdirilmiş olduqda, yerli orqanlar gəlir və xərclərin nisbətini daha düzgün qiymətləndirə bilir və büdcə məhdudiyyətləri çərçivəsində əhalinin tələbatlarına daha çevik reaksiya vera bilirlər. Bu, hökumətin işinin səmərəliliyinin artmasına da kömək edir, belə ki, dövləti yerli xarakterli məsələlərin həllindən azad etməklə, diqqətin ölkənin inkişafı ilə bağlı strateji məsələlərə cəmləşdirilməsinə, dövlət miqyasında müxtəlif proqramların səmərəli planlaşdırılmasına və təşkil olunmasına yönəltməyə imkan verir.

Qeyri-mərkəzləşdirmə yolu ilə yerli özünüidarəetmə institutunun yaradılması dövlət-hakimiyyət münasibətləri sistemində dövlət idarəetməsinin hədsiz mərkəzləşdirilməsinin və bununla bağlı yarana biləcək dövlət böhranlarının qarşısını almaq imkanına malik səmərəli "çəkindirmə və tarazlaşdırma" mexanizmi olub, müasir dövrdə dövlətin dayanıqlı inkişafi üçün zəruri şərtdir. Belə bir institutun olmaması və ya yerli özünüidarəetmənin uzun müddət sıxışdırılması dövləti dayanıqsız edir və dövlət böhranlarının yaranmasına səbəb olur. Dövlət üçün yerli özünüidarəetmənin inkişafı ölkəni idarəetmə kanalı kimi, ayrı-ayrı şəxslərin, əhalinin və bütövlükdə cəmiyyətin gündəlik tələbatlarının təmin olunması vasitəsi kimi çox vacibdir.

Qeyri-mərkəzləşdirmə konsepsiyasının əsasını onun yalnız idarəetmə üsulu olması deyil, həm də demokratik element təşkil edir. Siyasi baxımdan qeyri-

mərkəzləşdirilmənin məqsədi vətəndaşların dövlət idarəçiliyində iştirakını genişləndirmək və dövlət orqanlarının əhali qarşısında hesabatlılığını gücləndirmək yolu ilə dövlət idarəetməsinin əsaslarının demokratikləşdirilməsindən ibarətdir. Qeyri-mərkəzləşdirmə bir tərəfdən, işlərin idarə olunmasını bunda maraqlı olan şəxslərə verməklə demokratik xarakterli üstünlüklərə malik olur və bu halda yerli səviyyədə mövcud olan demokratiya ümummilli səviyyədə olduğundan daha real olur. Digər tərəfdən isə, lazımi şərait yaradıldıqda qeyri-mərkəzləşdirilmiş idarəetmə mərkəzləşdirilmiş idarəetməyə nisbətən daha rahat və daha əlverişli olur. Bu, vətəndaşlara hakimiyyətdə təmsil olunan nümayəndələrini yaxşı tanımağa, həmin nümayəndələrə isə seçicilərinin problemləri və tələbatları ilə daha yaxşı tanış olmağa imkan verir ki, bu da uyğun olaraq siyasi qərarların qəbulu və reallaşdırılmasına daha aktiv təsir göstərir (Qəndilov S.T. və başqaları, 2010).

Qeyri - mərkəzləşdirmə müəyyən funksiyaların, səlahiyyətlərin və maliyyə cavabdehliklərinin mərkəzi icra orqanından aşağı icra hakimiyyəti orqanlarına ötürülməsini nəzərdə tutur. Bu zaman mərkəzi hakimiyyət müəyyən məsələlərə görə cavabdehliyi yerlərə ötürür və ya dövlət fəaliyyətini yerinə yetirmək üçün yeni qanunlar yaradır.

Qeyri-mərkəzləşdirmə dövlət funksiyalarının , mülkiyyətinin və maliyyəsinin bir qisminin müxtəlif yollarla yerli özünüidarəetmə orqanlarına verilməsini nəzərdə tutur ki, bu orqanlar da qeyri-mərkəzləşdirilmiş funksiyalar çərçivəsində yuxarı hakimiyyət orqanlarına müraciət etmədən öz adından müstəqil şəkildə çıxış edə bilərlər. Bu yolla yerli muxtariyyət təmin olunur.

Qeyri - mərkəzləşdirmə prosesi mərkəzi dövlət orqanlarının rolunun azaldılması kimi başa düşülməməlidir. Dövlət orqanları dövlət fəaliyyətinin əsas sferaları üçün məsuliyyət daşımağa davam edir və qanunverici aktlar vasitəsilə yerli hakimiyyət orqanlarının fəaliyyətini tənzimləyirlər. Demokratik xalqı idarəedən mərkəzi hakimiyyətin güclü və aktiv olması zəruri şərtdir.Lakin bu zaman onun öz gücündən sui istifadə etməsinə yol verməmək lazımdır. Azərbaycan Respublikasında da ratifikasiya olunmuş Avropa Xartiyası Avropa dövlətləri ölkələrdə demokratik cəmiyyətin yaradılması prosesinin təmin edilməsini zəruri

hesab edir. Bu sənədə görə yerli özünüidarəetmə orqanları dövlət hakimiyyəti orqanlarına alternativ baxılmamalı, inkişaf etmiş demokratik və güclü dövlətin əlaməti kimi baxılmalıdır.

Demokratik dövlətin əsas vəzifəsi vətəndaşların hüquq və azadlıqların reallaşdırılması üçün əlverişli şəraitin yaradılmasından ibarətdir. Bu halda rasional dövlət quruluşu yaradılması hakimiyyətin idarə edilməsinin elə formasından ibarətdir ki, bu zaman qarşıya qoyulmuş məsələləri səmərəli şəkildə həll etmək mümkün olsun. Elə məsələ var ki, bunlar obyektiv olaraq mərkəzləşdirilmiş qaydada və strateji resurslar cəlb etmək yolu ilə yalnız mərkəzi dövlət səviyyəsində həll etmək mümkündür. Belə məsələlərə dövlətin ərazi bütövlüyünün təmin olunması, müdafiəsinin təşkil olunması, elm, təhsil, səhiyyə, təhlükəsizlik və digər məsələlərin reallaşdırılması aiddir.

Yerli özünüidaretmənin praktikası nümayiş edir ki, istənilən ölkənin tərəqqiyə çatmasının, yəni yüksəliş dövrünü yaşamasının birinci üsulu qanunvericiliyin bazasında bələdiyyələrə özünü idarə etmək kimi mütərəqqi bir səlahiyyət verilməlidir, onlar demokratik pirnsiplərdən yola çıxaraq öz fəaliyyətlərinin daim yaxşılaşdırılmasına cəhd göstərməlidir. Bələdiyyələrin fəaliyyəti millətin məhz özünüidarəetməsi olduğu üçün bu idarəetmə formasında demokratiyanın bütün prinsipləri öz əksini tapır. Yerli özünüidarəetmənin əsas mahiyyəti yerli əhəmiyyət daşıyan bütün məsələlərin həllini və məsuliyyətini əhalinin öz üzərinə götürən konkret inzibati ərazidə yaşayan vətəndaşların iqtisadi - sosial və mədəni inkişafına təminat verilməsidir. Bu işi ölkə konstitusiyasına görə Azərbaycanda inzibati ərazi vahidləri üzrə təşkil olunmuş bələdiyyələr keçirməlidirlər. Özünü idarəetmə məhdud ərazidə məskunlaşmış əhalinin hüquqlarının və azadlıqlarının qorunmasına yerli problemlərinin həllinə həmin ərazidə məskunlaşmış əhalinin fəal və mütəşəkkil qaydada qoşulmasını təmin edən demokratik prinsipidir. Yerli özünüidarəetmə dedikdə, yerli sakinlərin rifahını yaxşılaşdırmaq üçün yaradılmış əhalinin fəaliyyətinin təmsil olunması sistematikası başa düşülür. Bu sistemi özünün məsuliyyəti altında dövlətin qüvvədə olan qanunverici aktlarına müvafiq olaraq yerli əhəmiyyət kəsb edən məsələləri bilavasitə həll edir. Yerli özünüidarəetmə

konstitusiyalı quruluşun əsaslarından biri də eyni zamanda hakimiyyətin təşkilinin əsas prinsiplərdən biri olub, hakimiyyətin bölüşdürülməsi prinsipi ilə yanaşı idarəetmə sistemini müəyyən edir.

Bu gün bələdiyyə dedikdə, daha çox yerli əhaliyə xidmət göstərən və yerli əhəmiyyətli məsələləri həll edən idarəetmə strukturu başa düşülür. Bələdiyyə orqanının konseptual əsası eyni olsada, bir çox  ölkələrdə fərqli adlandırılır. Məsələn, Avropa ölkələrində “munisipalitet”, Baltikyanı ölkələrdə isə “Ratuşa“ , Ukrayinada isə fərqli olaraq “ xalq deputatları soveti “ və s. adlandırılır.

Yerli özünüidarəetmə orqanlarının fəaliyyətində bələdiyyələrin statusu və yerli məsəllələrin həll edilməsində təsərrüfat sərbəstliyinin olması nəzərdə keçirilir. Əsas məqamyerli özünüidarəetmə orqanlarının hansı mexanizimlərdə keçrilməsi deyil, əhəmiyyətli odur ki, bələdiyyələr tərəfindən qəbul etdiyi qərarlar hal hazırkı qanunvericiliyə uyğun olsun, əhalinin maraqlarına xidmət etsin, qərarlar real qəbul edilsin və zamanında yerinə yetirilsin (Bələdiyyə orqanının büdcəsinin icrasına dair statistik bülleten, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2016).

Yerli özünü idarəetmə orqanları qanunvericiliyə əsasən ərazi hüdudları daxilində bələdiyyə qurumudur.Bələdiyyə orqanlarının ərazi üzrə fəaliyyətində bu orqanların ictimaiyyətə açıqlığı bağlılıq və inamı artırmış olur ki, bu kimi problemlərin həlli internet texnologiyaları vasitəsilə təmin edilə bilər. Bundan əlavə yerli özünüidarəetmənin birinci dərəcəli vəzifəsi, hər bir insanın yerli özününidarəetmə orqanları və vəzifəli şəxsləri tərəfindən qərarların işlənib, hazırlanması və qəbulu prosesinə təsir göstərmək imkanı bələdiyyə qurumunun məsul səxslərini daha ehtiyatlı olmağa vadar etmiş olur.

Qeyri-mərkəzləşdirilmiş ərazi idarəçiliyinin təkmilləşdirilməsində ən önəmli rolu elektronlaşdırılma tutur.

Elektron bələdiyyə - yerli özünüidarəetmə rəhbərliyi ilə yerli idarəetmə fəaliyyətlərində informasiya texnologiyalarının istifadəsi, vətəndaş  və bizness internet xəttindən təsirli bir şəkildə şəbəkə üzərindən xidmətinin təmin edilməsidir. Elektron bələdiyyə xidməti bələdiyyələrin vəzifələrini yerinə yetirərkən internet texnologiyalarının köməkliyi ilə şəffaf idarəetməni həmçinin təmin etmiş olur.

Elektron bələdiyyə elektron hökümətin əhəmiyyətli və tamamlayıcı bir hissəsidir. Elektron bələdiyyə layihələrində məqsəd internet vasitəsilə bələdiyyənin xidmət və fəaliyyətləri haqqında bütün məlumatları yerli əhalinin istifadəsinə təqdim etmək və qarşılıqlı ünsiyyəti təmin etməkdir.

Yuxarıda adı çəkilən proqramın məqsədlərindən biri, vətəndaşların dövlət hakimiyyəti orqanlarının fəaliyyətinə dair məlumatlardan istifadə imkanlarının genişləndirilməsi, dövlət və bələdiyyə xidmətlərinin göstərilməsində operativliyin gücləndirilməsi, əhaliyə xidmətlərin göstərilməsində vahid standartların tətbiqi yolu ilə dövlətlə cəmiyyət arasında qarşılıqlı münasibətlərin keyfiyyətinin yüksəldilməsindən ibarətdir. Bu tarixdə“dövlət və yerli özünüidarəetmə orqanlarının fəaliyyətinə dair məlumatların ictimaiyyətə açıqlığının təmin edilməsi haqqında” qanun qəbul edilmişdir. Bu qanun, dövlət və yerli özünüidarəetmə orqanlarının fəaliyyəti barədə məlumatların ictimayyətə açıqlığının təmin edilməsilə əlaqədar münasibətlərin hüquqi tənzimlənməsinin əsaslarını müəyyən edir. Dövlət və yerli özünüidarəetmə orqanlarının fəaliyyəti barədə məlumatların ictimayyətə açıqlığının təmin edilməsi üsullarından biri dövlət və yerli özünüidarəetmə orqanları tərəfindən öz fəaliyyətləri barədə məlumatların “internet” şəbəkəsində yerləşdirilməsidir.

Fikrimcə, elektron bələdiyyə dedikdə, təkcə bələdiyyə ərazisinin rəsmi internet səhifəsi deyil, həm də yerli özünüidarəetmə orqanlarının əhali ilə, vətəndaş cəmiyyəti təsisatları ilə, yerli əhəmiyyətli məsələlərin həlli sahəsində fəaliyyət göstərən müxtəlif təşkilatlarla informasiya xarakterli qarşılıqlı əlaqəsi mexanizmi başa düşülməlidir.

Həqiqətən də, yerli özünüidarəetmənin həyata keçirilməsində internet texnologiyalarından istifadə bir sıra üstünlüklər bəxş edir:

1. Yerli özününidarəetmə orqanlarının bələdiyyə əhalisi, vətəndaş cəmiyyəti təsisatları və kommersiya strukturları arasındakı münasibətlərinin keyfiyyətini yüksəldir;

2. Zəruri informasiyanın əldə edilməsində vaxta qənaət, 24 saat ərzində informasiya resurslarından istifadə imkanı;

3. Elektron formada yerli özünüidarəetmə orqanlarına müraciətin daha optimal üsulunu seçmək imkanı xərc və vaxt amillərinə qənaət etməyə şərait yaratmış olur.

E-bələdiyyə idarəetməsi bələdiyyə və vətandaş baxımından daha səmərəli qarşılıqlı faydası vardır. Bələdiyyə tərəfindən bu yanaşma özündə xidmətlərin göstərilməsinə açıqlılıq, ədalətli vergi siyasəti və ödəmə qabiliyyətinin aktivləşdirilməsi, müasirləşmə, informasiyaya əsaslanan qərarvermə mexanizminin təkamülü hesab edilə bilər. Digər baxış tərzindən vətəndaşın e-bələdiyyə xidmətləri daha keyfiyyətli xidmət (7/24 saatlıq xidmət), bu xidmətlərdən istifadədə maneəsiz yararlanmaq, ərazidə baş verən proseslərə görə hesabat alma imkanı yaratmış olur.

Elektron bələdiyyə layihəsində daxili və xarici sənəd dövriyyəsi, protokollar, icazə mexanizmləri, arxiv məlumatları və sair tətbiqlər elektron təklif edilir. Arxiv sənədləri bələdiyyənin informasiya bazası kimi formalaşır.

Hal-hazırda ölkə üzrə ərazilərdə ümumi 1642 bələdiyyə qurumu fəaliyyət göstərir. Bu layihə vətəndaşa bələdiyyə arasındakı məsafəni yaxınlaşdırmış olacaqdır. Başqa cür desək bələdiyyə vətəndaşına tanımaq imkanı verən bu xidmət ondan sosial-iqtisadi və humanitar layihələrin reallaşdırılmasından istifadə etmək imkanı vermiş olacaqdır. Bu xidmət ərazidə sosial gərginliyi azaldacaq, ərazidə inkişafa şərait yaradacaq layihələrin meydana gəlməsinə səbəb olacaqdır. Təkcə bələdiyyə-vətəndaş münasibətləri kimi deyil, vətəndaşı birləşdirəcək geniş pilot mərkəzi xarakterinə malik olacaqdır.

## 3.3.Bələdiyyələrin maliyyə-iqtisadi imkanlarının gücləndirilməsinin aşkar edilməsi

Hər bir dövlətin öz maliyyə sistemi formalaşır. Maliyyə sistemi qarşılıqlı əlaqəli maliyyə münasibətlərini və həlqələrini birləşdirir. Maliyyə sisteminin həlqələri müxtəlif ölkələrdə biri - birindən fərqli ola bilər. Ancaq ümumi şəkildə yanaşdıqda maliyyə sisteminin iki səviyyədə mövcud olması və fəaliyyət göstərməsini müşahidə etmək olar:

Mərkəzləşdirilmiş maliyyə;

Yerli maliyyə.

"Mərkəzləşdirilmiş maliyyə hər vaxt dövlət maliyyəsi kimi çıxış edir. Yerli maliyyə dedikdə isə həm yerli hakimiyyət orqanlarının maliyyəsi, həm də yerli özünüidarə orqanlarının maliyyəsi başa düşülür. Maliyyə sisteminin həlqələri arasında qarşılıqlı əlaqə müxtəlif istiqamətləri əhatə edir və ayrı-ayrı ölkələrdə özünəməxsusluğu ilə fərqlənir. Heç bir dövlət bütövlükdə maliyyə sistemi haqqında qanun qəbul etmir" (Zeynalov V.Z., Hüseynov A.M. 2006: s.104).

Ancaq maliyyə sisteminin hər bir həlqəsi haqqında uyğun qanunlar qəbul edilir və həmin həlqə göstərilən qanuna uyğun olaraq formalaşdırılır. Bu isə son nəticədə ölkənin maliyyə sisteminin formalaşmasına gətirib çıxarır.

Bələdiyyələrin meydana gəlməsi ilə yerlərdə seçkili orqanlar fəaliyyətə başlamış, bu isə müstəqil surətdə yerli büdcələrin formalaşdırılması və fəaliyyətinə imkan yaratmışdır. Bələdiyyə qurumlarının yaradılmasından əvvəl onun fəaliyyətinin hüquqi və iqtisadi bazasının hazırlanması məqsədilə bir sıra qanunvericilik aktlarında yerli özünüidarəetmə sahəsində beynəlxalq təcrübə və ölkəmizin milli xüsusiyyətləri nəzərə alınmaqla bələdiyyə maliyyəsinin təşkilinin əsas vəzifələri, prinsipləri və s. müəyyənləşmişdir. Maliyyə sisteminin əsas həlqələrindən olan dövlət maliyyəsi və bələdiyyə maliyyələri qarşısında həm ümumi, həm də bilavasitə hər həlqələrinin qarşısında qoyulan vəzifələr müəyyən edilir.

Dövlət və bələdiyyə maliyyəsinin nəzarət funksiyası ilə yanaşı planlaşdırma, təşkiletmə, stimullaşdırma funksiyaları da mövcuddur və bu funksiyaların reallaşdırılmasında da dövlət maliyyə sistemi bələdiyyələrin maliyyə sisteminə öz müsbət təsirini göstərə bilər. Dövlət maliyyə sistemində maliyyə resurslarının müxtəlif istiqamətlər üzrə daxil olmasını da, xərclənməsi də dəqiq planlaşdırılır. Bələdiyyə büdcələrinin reallığı isə belə xarakterizə edilə bilməz. Deməli, bələdiyyə maliyyəsinin qarşısında duran əsas vəzifələrdən biri daha real yerli büdcələrin planlaşdırılması və planlaşdırılan büdcələrin reallaşdırılmasına nail olunmasıdır.

Maliyyə sistemi - hər bir hissəsi tamlığın xüsusiyyətlərinə öz payını verən, qarşılıqlı əlaqəsi olan hissələrin məcmusu olduğu üçün bütövlükdə sistemin

təkmilləşdirilməsi onun hər bir hissəsinin təkmilləşdirilməsindən aslıdır. Buna görə də yalnız dövlət maliyyəsinin təkmilləşdirilməsi, bələdiyyə maliyyəsinin isə zəif olması ölkəmizin inkişaf etmiş maliyyə sistemi olmasını deməyə imkan vermir. Buna görə dəyərli maliyyənin, xüsusən də onun gəlir bazasının möhkəmləndirilməsi istiqamətində mühüm işlər görülməlidir.

Azərbaycan bələdiyyəsi real maliyyə mənbələri axtarmağa məcburdur. Azərbaycan bələdiyyəsinin maliyyə resursları ilə təminatının yaxşılaşması bələdiyyə büdcəsinin potensial ehtiyatlarını da ətraflı artırmağı tələb edir. Bələdiyyə maliyyəsinin yalnız bələdiyyə büdcələri ilə təmsil olunmasına son qoyulmalıdır. Tədricən bələdiyyələrin maliyyə bazarında iştirakı, büdcədənkənar pul fondlarının formalaşdırılması, müxtəlif pullu xidmətlərin təşkili və s. təmin olunmalıdır. Bələdiyyələr yerli əhalini, onların ehtiyaclarını daha yaxşı bildikləri üçün gələcəkdə həm mərkəzi hakimiyyət orqanlarının, həm də büdcədənkənar dövlət pul fondlarının müəyyən səlahiyyətlərinin bələdiyyələrə ötürülməsi zəruridir. Əlbətdə, bu halda uyğun maliyyə təminatı da ayrılmalıdır. Digər ölkələrdə bələdiyyə maliyyə resurslarının formalaşdırılmasında maliyyə bazarı mühüm rol oynayır (Ələkbərov Ə.Ə.2005: s.42).

Dövlət tərəfindən qiymətli kağızların emissiyası prosesinə nəzarətin həyata keçməsi qiymətli kağızların etibarlılığını daha da artıracaqdır. Emissiya layihəsinin həyata keçməsi zamanı ilk növbədə bələdiyyə ehtiyaclarının maliyyələşdirilməsi şərtləri təmin edilməlidir. Bu zaman layihələrin bütün iştirakçıları üçün risk azaldılmalı və bütün sivil dövlətlər üçün xarakterik olan azad rəqabət mühiti yaradılmalıdır. Bələdiyyə qiymətli kağızları fondlar bazarında uğurlu yerləşdirilməsi fiziki və hüquqi şəxslərin investisiya aktivliyindən daha çox asılı olacaqdır. Əhalinin əmanətlərinin qiymətli kağızların buraxılışı vasitəsilə kapitalın təkrar istehsalı prosesinə aktiv şəkildə cəlb edilə bilər. Bu zaman bələdiyyə qiymətli kağızları şəxsi yatırımlar üçün iqtisadi maraq doğura bilər. Bələdiyyə qiymətli kağızların etibarlılığının artırılması zamanı əsas vəzifələrdən biri də bələdiyyələrin və investorun kredit və bazar risklərinin minimuma endirilməsidir. (Ələkbərov Ə.Ə. 2005: s.67)

Bələdiyyələr əhali arasında izahedici işləri genişləndirməli, vergilərin ödənilməsinin məcburi olduğunu, lakin intizamlı vergi ödəyicilərinə müəyyən güzəştlər edilə biləcəyini sakinlərin nəzərinə çatdırılmalıdır. Vergi ödəməkdən müntəzəm yayınan şəxslərə qarşı qanun çərçivəsində tədbirlər görülməli, məhkəməyə müraciət olunmalıdır.

Torpaq və əmlak vergilərinin düzgün müəyyən edilməsi və tam həcmdə toplanmasını təmin etmək məqsədilə ölkə üzrə daşınan və daşınmaz əmlakın təkmil reyestri yaradılmalıdır. Bu vergilərin hesablanma qaydaları sadələşdirilməli və hər kəsin başa düşə biləcək şəkildə olmalıdır. Bələdiyyə gəlirlərinin formalaşmasında bələdiyyə mülkiyyəti ilə bağlı gəlirlərin də mühüm rol oynadığı bəllidir. Buna görə də bələdiyyə mülkiyyətinin düzgün idarə edilməsinin təşkilinə diqqət artırılmalıdır. Bələdiyyə əmlakını, o cümlədən bələdiyyə torpaqlarının satılması daha şəffaf şəkildə təşkil olunmalı, əldə olunan gəlirlərin tam həcmdə mədaxil edilməsinə nail olunmalıdır.

Sirr deyil ki, bələdiyyələrin fəaliyyətə başladığı ilk illərdə torpaqların daha baha qiymətə satılması və cüzi qiymətlərlə rəsmiləşdirilməsi hallarına yol verilmişdir buna görə də, AR Prezidentinin sərəncamı ilə bələdiyyələr tərəfindən torpaqların bilavasitə satılması dayandırıldı və bələdiyyə torpaqlarının hərraclarda satışının həyata keçirilməsinə başlandı. Eyni qayda tətbiq etmək məqsədə uyğundur. Bələdiyyələr öz əmlakını əlverişli şərtlərlə icarəyə verməkdən və bələdiyyə mülkiyyətində müxtəlif reklamların yerləşdirilməsindən də gəlir əldə edilməsinə diqqəti artırmalıdırlar.

Ümumi iqtisadi inkişaf şəraitində bu gəlirlərin artırılması üçün real şərait yaranır. Bu zaman yalnız bələdiyyə mülkiyyəti üzərində deyil, həm də bələdiyyə ərazisində yerləşdirilən və yayımlanan bütün reklamlara görə hüquqları yerli büdcələrə alınması təmin olunmalıdır. Bələdiyyələrin maliyyəsinin təşkilinin təkmilləşdirilməsi istiqamətləndirilən biri də, onların təsərrüfat fəaliyyəti ilə məşğul olmasının genişləndirilməsi yolu ilə vəsaitlərin əldə edilməsidir.

Bələdiyyələr müxtəlif xidmətlər, o cümlədən, turizm xidmətləri göstərilməsi, məktəbəqədər uşaq müəssisələrinin saxlanılması, nəqliyyat xidmətlərinin təşkili və

s. sahəsində pullu xidmətlər göstərə bilərlər. Kənd və qəsəbə yollarının çəkilməsi və ona xidmət də buraya aid edilə bilər. Bu məsələyə AR Prezidenti cənab İ.Əliyev də öz münasibətini bildirmişdir (Azərbaycan Respublikasının 2011-2015-ci illər üzrə dövlət büdcəsi zərfi, 2010-cu ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr edilmiş İ.H.Əliyevin nitqi, 2010).

AR NK-nin 2010-cu ilin birinci rübünün sosial - iqtisadi yekununua həsr edilmiş iclasındakı nitqində demişdir: “Elə etməliyik ki, rayondaxili yollar, kənd yolları da təmir edilsin, salınsın. Bu sahə yerli icra orqanlarının sərəncamındadır. Onlara da lazımi səviyyədə vəsait verilməlidir ki, o işlər görsünlər. Eyni zamanda bu işlər bələdiyyələrin xətti ilə görülməlidir. Əslində kənd yollarını bələdiyyələr inşa etməlidirlər. Azərbaycan hökuməti bu funksiyanı tezliklə həll etmək üçün öz üzərinə götürüb. Ancaq bu əslində bələdiyyənin işidir. Onlar toplanan vəsaitlərə əsasən kənd və qəsəbə yollarını insanları qane edəcək vəziyyətə salmalıdırlar”. Bu çıxışda bələdiyyələrin fəaliyyətinin təşkili haqda bir neçə dəyərli tezis irəli sürülmüşdür. Hər şeydən əvvəl bələdiyyələr yeni səlahiyyətlərin verilməsi zərurəti qeyd edilir. Həqiqətən də əhalinin sosial vəziyyətinin, regionlarda infrastrukturunun inkişaf etdirilməsinə, xüsusən yolların salınmasına və saxlanılmasına bələdiyyələrin cəlb edilməsi zəruriət açıq görünür. Eyni zamanda verilən əlavə səlahiyyətlərin maliyyə təminatının zəruriliyi də nəzərə çarpılırdı.

Azərbaycan Respublikasında bələdiyyə maliyyəsinin təşkilində bu tövsiyyələrin yerinə yetirilməsi müsbət rol oynayacaqdır. Azərbaycanın yerli şəraitinə və özünəməxsus xüsusiyyətlərinə uyğun konsepsiyasının hazırlanması və həyata keçirilməsi də az əhəmiyyət kəsb etmir. Yerli özünüidarə orqanlarının formalaşması, fəaliyyəti və idarə mexnizmləri ilə bağlı dünya təcrübəsini öyrənməklə Azərbaycanın milli və yerli xüsusiyyətləri nəzərə alınaraq müvafiq qanunvericilik aktları hazırlanaraq tətbiq olunmalıdır. Bələdiyyələrin formalaşması və fəaliyyəti üçün qanunvericilik aktlarının hazırlanmasında aşağıdakı məsələlərin nəzərə alınması məqsədə uyğundur (Bədəlov Ş.Ş. 2013: s.60).

- yerli özünüidarə orqanlarının formalaşması, iş prinsipləri, statusu haqqında əhalinin geniş məlumatlandırılması;

- bələdiyyələrin maliyyə sistemi ilə dövlət maliyyə sistemi arasında qarşılıqlı əlaqələrin təkmilləşdirilməsi;

- yerli özünüidarə orqanlarının səlahiyyətlərinin və ona uyğun maliyyə təminatlarının genişləndirilməsinin təmin olunması;

- qabaqcıl dünya ölkələrinin yerli özünüidarə təcrübəsinin öyrənilməsi və yerli şəraitlə uyğunlaşdıraraq tətbiq olunması.

Bələdiyyələrin maliyyəsinin təkmilləşdirilməsi istqamətlərindən biri də bələdiyyələrin kooperasiyasının yaradılmasıdır. Maliyyə sahəsində bələdiyyələrin kooperasiyasının ən optimal səviyyəsi bələdiyyələr assosasiyası çərçivəsində reallaşa bilər. Ölkəmizin bir sıra şəhər bələdiyyələri artıq müəyyən maliyyə imkanlarına malikdirlər (bələdiyyələr assosiasiyasının geniş coğrafi sərhədləri əhatə etməsi bu işdə müsbət rol oynaya bilər). Assosasiya daxilində maliyyə problemlərinin həlli üçün borc mexanizmindən həll edilə bilər.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Tədqiqat aşağıdakı nəticələri əldə etməyə imkan vermişdir: bələdiyyələşmənin nəzəri və metodoloji əsasları araşdırılaraq bu qənaətə gəlmək olar ki, bələdiyyələr demokratik idarəetmənin ən yüksək mərhələsi hesab edilməklə istənilən ölkədə milli adət-ənənələri və tarixi inkişafı nəzərə almaqla formalaşdırılmalıdır, ölkədə bələdiyyələrin uğur qazanması demokratiyanın inkişaf səviyyəsi və onun iqtisadi əsaslarının zənginliyi və möhkəmliyi ilə ölçülür. Konkret bələdiyyələrin fəaliyyətinin təhlili nəticəsində belə qənaətə gəlinmişdir ki, Respublikamızda bu sahədə müəyyən problemlər mövcuddur. Xüsusilə də bələdiyyələrin səlahiyyətlərinin və gəlir mənbələrinin konkret olaraq bölünməsi, minimal büdcə təminatının olmaması, bələdiyyələrin üzərində effektiv nəzarətə imkan verən hüquqi aktların lazımı səviyyədə olmaması, qanunların tədbiqi sahəsində bürokratçılıq, səhlənkarlıq, bələdiyyəyə veriləcək mülkiyyətin qıtlığı, bir sıra hallarda mübahisəli xarakter daşıması və mülkiyyətin transformasiyası məsələsinin ləng həyata keçirilməsi, yerli büdcə gəlirlərinin məhdudluğu və s. bu sahədəki əsas problemlərdir. Yerli özünüidarətemə orqanlarının mülkiyyəti mütləq formada öz inkişafına şərait yaratmalıdır. Mövcud olan siyasi vəziyyətdə öz mövcudluğunu qorumaq üçün mülkiyyətdən səmərəli istifadə etməli olan bələdiyyələr özünəməxsus xüsusiyyətləri ilə düzgün, təsirli və yerində strategiya yarada bilər:

- bələdiyyə müəssisələri bələdiyyə ərazisində yaşayan əhalinin normal həyat fəaliyyəti şəraitini müəyyən edir;
- bələdiyyələrin istehsal obyektləri gəlir gətirmək prinsipi ilə işləyir və bələdiyyə büdcəsinə pul daxilolmalarını təmin edir;
- yerli özünüidarəetmə təşkilatları istənilən halda öz inzibati ərazilərindəki sakinlərinə sahib olduqları mülkiyyət ilə bağlı verilən qərarlarda iştirakını təmin edir;
- bələdiyyə müəssisələrinin sayı kifayət qədər olmalıdır ki, hakimiyyət öz ictimai fəaliyyətlərini davamlı surətdə yerinə yetirə bilsin;
- ölkəmizin inkişafında bələdiyyələrin önəmini qavardıqdan sonra əsas məsələ onların stabil fəaliyyətini təmin etməkdir. Buna görə də bələdiyyə mülkiyyətinə

daxil olan obyektlərdən pul vəsaiti onların büdcələrinə daxil olmalıdır. Əgər bu prinsip nəzərə alınmasa, bələdiyyələrin yerli sakinlərin tələbatlarını ödəməsi qeyri-mümkündür və nəticədə xalq keyfiyyətli idarəetmə sistemindən yararlanmayacaqdır.

- özəlləşdirmə mexanizmi yerli özünüidarəetmə mülkiyyətinin qurluşunun əsasını təşkil edir. Bu səbəbdən də bələdiyyələr yerli əhalinin ehtiyaclarının təmini ilə əlaqədar təzadlar yaranmasın deyə, öz mülkiyyət obyektlərini, xüsusən də bələdiyyə büdcəsinə gəlir gətirə bilən yüksək rentabelli müəssisələri özəlləşməyə çıxarmağa tələsməməlidir. Əks halda bu tələsgənlik bələdiyyə büdcəsinin formalaşması və tərəqqisinə neqativ təsir göstərə bilər,

- Yerli özünüidarəetmə mülkiyyətinin sərhədlərinin təyin edilməsi uzun bir mexanizmdir. O, bir ilə başa gələ bilməz. Bu səbəbdən də hər il bələdiyyə orqanı məqsədəuyğun şəkildə ancaq öz qüvvəsinə güvənməli, bələdiyyə mülkiyyətini sərbəst formalaşdıra bilmə imkanını əldə əsas tutaraq, bu yolla bələdiyyələrə mənfəət verə biləcək müxtəlif istehsal obyektləri yaratmalıdırlar.

Bələdiyyə müəssisələrinin idarə olunma sistemini təhlil edərək, ümumi bir qənaətə gəlmək olar ki, istənilən bir sistem, o cümlədən bələdiyyə müəssisəsinin idarəolunma sistemi təyin edilmiş normativlər əsasında qurulur. Bu normativlərin diqqətlə nəzərdən keçirilməsi və ona uyğun hərəkət edilməsi olduqca vacib bir amildir.Əgər nəzərə alınmazsa, yerli özünüidarəetmə orqanlarının tərkib hissələri çevikliyini itirə bilər, bu da ümumi olaraq bələdiyyə idarəetməsinə mənfi təsir göstərər. Bu nöqteyi-nəzərdən, bələdiyyə müəssisəsinin səmərəli idarə edilməsi üçün funksional alt sistemin, eləcə də təminat alt sistemin təsir xüsusiyyətlərini özündə birləşdirən bütün qaydalara bir mənalı şəkildə əməl olunmalıdır.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində

1. Azərbaycan Respublikasının Konstitusiyası (2002), "Hüquq ədəbiyyatı" nəşriyyatı, Bakı

2. Azərbaycan Respublikasının Qanunu (1999), "Bələdiyyələrin statusu haqqında"

3. Azərbaycan Respublikasının Qanunu (1999), "Bələdiyyələrə seçkilərin qaydaları haqqında"

4. Azərbaycan Respublikasının Qanunu (2018), "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında"

5. "Yerli (bələdiyyə) vergiləri və ödənişlər haqqında" Azərbaycan Respublikasının Qanunu (2008), "Yerli özünüidarəetmə haqqında Avropa Xartiyası"

6. Azərbaycan Respublikasının 2011-2015-ci illər üzrə dövlət büdcəsi zərfi, 2010-cu ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr edilmiş İ.H.Əliyevin nitqi, Bakı 2010

7. AR-nın Milli İqtisadiyyatının perspektivləri üzrə Strateji Yol Xəritəsi, 2016

8. "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları" haqqında əsasnamə

9. Ağayev R. (2006). "Yerli özünüidarə və Azərbaycan Respublikasında yoxsulluğun azaldılmasında bələdiyyələrin rolu", Bakı, "Elm", 365 səh.

10. Bədəlov Ş.Ş. və başqaları (2013), "Büdcə sistemi", dərslik, Bakı, "Azərbaycan", 341 səh.

11. Bələdiyyə maliyyəsi və yerli büdcə prosesi, 2003, səh 24.

12. Bələdiyyə jurnalı (2010), "Demokratik Seçkilərə Yardım Mərkəzi", Bakı

13. Bələdiyyə orqanının büdcəsinin icrasına dair statistik bülleten, Azərbaycan Respublikasının Statistika Komitəsi, Bakı 2016

14. "Bələdiyyə xidmətlərinin inkişafı üçün ehtiyacların qiymətləndirilməsi" hesabatı, Bakı, 2004

15. Bələdiyyələr haqqında ümumi biliklər (2009), Bakı

16. Ələkbərov Ə.Ə.(2005), "Azərbaycan dövlətinin sosial-iqtisadi inkişafında vahid büdcə sisteminin rolu", Bakı, "Şərq və Qərb", 412 səh.

17. Güləliyev M., Zülfüqarlı M., Güləliyev Ç. (2003), Yerli özünüidarə: Avropa praktikası. Vətəndaş Təşəbbüsləri Mərkəzi, Bakı, "Çaşıoğlu", 411 səh.

18. İbrahimov İ. (2018), "Bələdiyyə idarəçiliyi" dərsləri, Bakı, "Səda", 254 səh.

19. Qəndilov S.T. və başqaları (2010), "Dövlət İdarəçilik Nəzəriyyəsi", Bakı, "Elm və təhsil", 552 səh.

20. Zeynalov V.Z., Hüseynov A.M. (2006), "Dövlət və bələdiyyə maliyyəsinin problemləri", Bakı, "Azərbaycan", 452 səh.

## Türk dilində

1. Gözübüyük, Ş. (2000), Yönetim Hukuku, Turhan Kitapevi, Ankara. 352 say.
2. Günday, M. (1996), İdare Hukuku, İmaj Yayıncılık, Ankara. 257 say
3. Yayla, Y. (2009), “İdere Hukuku”, Beta Yayınları, İstanbul, 457 say.

## Rus dilində

1. Баранчиков В.А. (1990) Муниципальные органы Великобритании М.475 стр.

2. Игнатов В.Г., Бутов В.И. (1999) Зарубежный опыт местного самоуправления ироссийская практика. Ростов н/Д: Феникс, 443стр.

3. Розин М. Л. (1999)“Местное Самоуправление в Эпоху Глобализации и Этнических Конфликтов”, Москва, Издателъство Местник, 112стр.

4.Токвиль Ф. (1992): “Демократия в Америке”. М. 563 стр.

## İnternet resursları

1. http://sai.gov.az/upload/files/REY-DB-2019.pdf

2. http://www.maliyye.gov.az/sites/default/files/kitab.compressed.protected.pdf

3. http://www.stat.gov.az/source/finance/az/bul/belediyye_2015.pdf

## Cədvəllərin siyahısı

**Cədvəl 1:** Bələdiyyə mülkiyyəti obyektləri.....................................................................19
**Cədvəl 2:** Bələdiyyələrin təşkili qaydaları.........................................................................36

## Şəkillərin siyahısı

**Şəkil 1:**Bələdiyyənin sahə üzrə formalaşması...............................................................36